AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI

# Ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-Cİ İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 24 FEVRAL 2022-Cİ İL / № 07 (1274)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU

# Azərbaycan və Rusiya münasibətlərinin yeni müttəfiqlik səviyyəsi



**Rusiya Federasiyasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də Moskva şəhərindəki Aleksandr bağında naməlum əsgərin məzarını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Rusiya paytaxtında Kremlin divarı yanındakı Aleksandr bağına gəldi.

Prezident İlham Əliyev naməlum əsgərin məzarını ziyarət edərək əbədi məşəl önünə əklil qoydu.

Azərbaycanın Dövlət Himni səsləndirildi.

Sonra fəxri qarovul dəstəsinin keçidi oldu.

Daha sonra Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Rusiyada rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 22-də Rusiya dövlətinin başçısı ilə təkbətək görüşü olub.

Rusiya Prezidenti Vladimir Putin deyib ki, bu gün biz Qarşılıqlı müttəfiqlik əlaqələri haqqında Bəyannamə imzalayacağıq. Tamamilə aşkardır ki, bu, bizim münasibətlərimizin inkişafında yeni mərhələdir və şübhəsiz, bu, o cümlədən bütövlükdə hələ sona qədər nizamlanmamış, lakin həllində irəliləyiş əldə edilmiş Qarabağ münaqişəsinin tənzimlənməsinə nail olduqdan sonra mümkün olub.

Yeri gəlmişkən, həm Rusiya Federasiyası, həm də bilirəm, Sizin digər qonşularınız bu məsələlərin, o cümlədən nəqliyyat kommunikasiyaları məsələlərinin həll edilməsində maraqlıdırlar, ona görə ki, bunda təkcə Azərbaycan və Ermənistan maraqlı deyil, - Rusiya da, təkrar edirəm, Sizin bütün başqa qonşular da maraqlıdırlar.

**Ticari-iqtisadi əlaqələrə gəldikdə, onlar durmadan inkişaf edir. Pandemiyaya baxmayaraq, keçən il bizdə əmtəə dövriyyəsi 16 faizdən çox artıb və bu, çox yaxşı göstəricidir. Sizə təşəkkür edirik ki, Siz bizim qarşılıqlı fəaliyyətimizi dəstəkləyirsiniz.**

Bizim üçün həssas və mənim fikrimcə, Azərbaycan üçün də çox vacib olan humanitar məsələlərin həllini, ilk növbədə, rus dilinin inkişafını dəstəklədiyinizə görə Sizə təşəkkür edirik. Mən bilirəm ki, Azərbaycanın 300 məktəbində rus dili fəal öyrənilir, bu dil populyardır. Əlbəttə, biz bunu gələcəkdə də hər vasitə ilə dəstəkləyəcəyik.

**V.Putin deyib ki, bildiyiniz kimi, biz beynəlxalq terrorizmin xarici təcavüzü ilə əlaqədar Qazaxıstan rəhbərliyinin xahişi ilə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində Qazaxıstanı dəstəklədik. Bu problem aradan qalxan kimi Qazaxıstan rəhbərliyinin xahişi ilə biz Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının kontingenti çərçivəsində özümüzün bütün silahlı qüvvələrimizi oradan çıxardıq və bütün istiqamətlər üzrə Qazaxıstan ilə əməkdaşlığı davam etdiririk. Şübhəsiz, bu iş həm Rusiyanın, həm də Qazaxıstanın xeyrinədir və Qazaxıstanın suverenliyini möhkəmlədir.**

Biz bundan sonra da bütün qonşularımızla münasibətdə bu cür hərəkət etmək niyyətindəyik. İndi bizim hər şey barədə daha ətraflı söhbət etmək imkanımız olacaq. Mən təfərrüat barədə Sizi məlumatlandıracağam.

**Azərbaycan Prezidenti İlham Əliyev Rusiyaya rəsmi səfərə dəvətə görə Vladimir Putinə təşəkkürünü bildirib. Dövlətimizin başçısı deyib ki, Sizinlə noyabrın sonunda görüşmüşdük, o vaxtdan üç aydan az keçib. Bu gün də mən Rusiya Federasiyasındayam. Bütün bunlar ona dəlalət edir ki, bizim münasibətlərimiz çox dinamik şəkildə inkişaf edir. Biz daim əlaqə saxlayırıq, zəngləşirik. Əlbəttə, şəxsi görüşlərimiz həmişə xüsusi əhəmiyyət kəsb edir, xüsusən ona görə ki, Siz qeyd etdiyiniz kimi, ölkələrimiz arasında ən mühüm sənədin imzalanması ərəfəsində. Rəmzi haldır ki, bu görüş, Siz qeyd etdiyiniz kimi, ölkələrimiz arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyi ərəfəsində keçir. Fikrimcə, bu sənəd ölkələrimiz, qarşılıqlı əlaqələrimiz, həmçinin regional təhlükəsizlik üçün birmənalı olaraq çox müsbət əhəmiyyət kəsb edəcəkdir. Biz ölkələrimiz arasında yaranmış dostluq, mehriban qonşuluq münasibətlərini çox yüksək qiymətləndirir, onları möhkəmləndiririk.**

Təşəkkür edirəm ki, Siz bunu həmişə vurğulayırsınız, bizim səylərimizi qiymətləndirirsiniz və düzgün olaraq qeyd etdiyiniz kimi, bu, həm Rusiya üçün, həm də Azərbaycan üçün vacibdir. Məktəblər məsələsinə gəldikdə, bir qədər dəqiqləşdirmək istərdim. Azərbaycanda təhsilin rus dilində olduğu 340-a yaxın məktəb var, bu məktəblərdə 140 mindən çox uşaq təhsil alır. Azərbaycanda 15 mindən çox vətəndaş ali məktəblərdə rus dili bölmələrində oxuyur. Mənim fikrimcə, bu, bizim münasibətlərimizin və gələcək əlaqələrimizin çox mühüm əsasıdır, ona görə ki, rus dili keçmiş Sovet İttifaqı ölkələrini həmişə birləşdirirdi və əlbəttə, rus dilini bilmədən gələcək nəsillərin əlaqələrini nizamlamaq çox çətin olar.

Azərbaycan Prezidenti bildirib ki, Rusiya Federasiyası Azərbaycan ilə Ermənistan arasında müharibənin dayandırılmasında və münaqişənin nizamlanmasının qaynar mərhələdən siyasi diplomatik sahəyə keçirilməsində çox mühüm rol oynayıb. 2020-ci ilin noyabrında Sizin fəal iştirakınızla imzalanmış üçtərəfli Bəyanat bu çoxillik münaqişəni nizamlamağımıza imkan verdi. Bu gün yeni vəziyyət yaranıb, regionda bugünkü geosiyasi reallıqlar dünya birliyi tərəfindən qəbul edilib. Rusiya Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması, nəqliyyat kommunikasiyalarının açılması, normal qonşuluq münasibətlərinin qurulması üçün imkanlar yaradılması işində çox mühüm, mən deyərdim əsas rol oynayır. Biz bu rolu çox yüksək qiymətləndiririk. Ümidvarıq ki, erməni tərəfi də bizim kimi, öz tərəfindən 2020-ci ilin noyabrında imzalanmış Bəyanatın bütün bəndlərini yerinə yetirəcək.

**Beləliklə, gündəliyimiz çox genişdir, bu səfər xüsusi səfərdir. Mən Prezident kimi 48-ci dəfədir ki, Rusiyadayam. Lakin bu, xüsusi haldır. Bu gün biz tarixi xarakterli çox mühüm sənəd imzalayacağıq.**

Sonra fevralın 22-də Moskvada "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamə imzalanıb. Sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin imzalayıblar.

Bəyannamənin imzalanmasından sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mətbuata bəyanatlarla çıxış ediblər.

**Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də Moskvada Rusiya Nazirlər Kabinetinin Əlaqələndirmə Mərkəzi ilə tanış olub.**

## Səttar Möhbalıyev:

*"Moskva Bəyannaməsinin bütün müddəaları Azərbaycanın milli maraqlarına uyğundur"*

BAX SƏHİFƏ: 3

## Azərbaycan naminə şərəfli missiya

Mehriban xanım Əliyeva böyük dayaq, mərhəmət və xeyirxahlıq örnəyidir

BAX SƏHİFƏ: 2-3

## "Təhsilə ictimai baxış"da məktəb-valideyn tərəfdaşlığı

BAX SƏHİFƏ: 4

## 2021-ci ilin yekunlarına dair hesabat dinlənildi

BAX SƏHİFƏ: 5

## Düşərgə maraqlı anlarla yadda qalıb

BAX SƏHİFƏ: 4

## Əmək münasibətlərinin elektronlaşdırılması

BAX SƏHİFƏ: 5

## Qaliblərə mükafatlar təqdim olundu

BAX SƏHİFƏ: 4

## Hüquq məsləhətxanası



BAX SƏHİFƏ: 8

**Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!**

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

## Beynəlxalq ictimai nəqliyyat işçiləri tətilə çıxıblar

BAX SƏHİFƏ: 7

## COVID-19 infeksiyasına son sutkada 1979 yoluxma faktı qeydə alınıb




**Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 1979 yoluxma faktı qeydə alınıb, 7198 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 27 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 779 min 783 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 749 min 524 nəfər müalicə olunaraq sağalıb, 9307 nəfər vəfat edib. Aktiv xəstə sayı 20 min 952 nəfərdir.

**Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10 min 506, bu günə qədər isə ümumilikdə 6 milyon 511 min 864 test icra olunub.**

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ



# Azərbaycan naminə şərəfli missiya

## Mehriban xanım Əliyeva böyük dayaq, mərhəmət və xeyirxahlıq örnəyidir

**Azərbaycan tarixində zamanın, hadisələrin məhvərini dəyişməyə qadir, sərkərdə ruhlu, siyasətdə, elmdə, mədəniyyətdə, incəsənətdə və digər bütün sahələrdə ciddi nəticələrə imza atan güclü qadınlar çox olub. Onlar cəmiyyətimizin inkişafında fəal iştirak edib, ona öz töhfələrini veriblər.**
**Bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayan qadınlar təkcə ana deyil, həm də bacarıqlı siyasətçi, iş adamı, dövlət məmurudurlar. Humanizmi, xeyirxahlığı və nəcibliyi, bənzərsiz ictimai fəaliyyəti ilə nəinki Azərbaycanda, eləcə də dünyada yüksək ehtiram sahibi olan ölkəmizin birinci xanımı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tariximizin şanlı salnaməsinə öz dəst-xəti ilə daxil olan şəxsiyyətlərdən biridir.**

### *Mütərəqqi islahatlar və ən doğru seçim*

Bu gün ölkəmizdə Birinci vitse-prezident Mehriban Əliyevanın timsalında Azərbaycan qadınının cəmiyyətdəki yeri, nüfuzu, işgüzarlığı, dövlətə layiqli xidmət missiyası daha aydın görünür. Təsadüfi deyil ki, Mehriban Əliyevanın siyasi-ictimai fəaliyyəti təkcə ölkəmizdə deyil, həm də dünyada Azərbaycan qadınının obrazının formalaşmasında müstəsna rola malikdir.

**Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyevin dövlətçilik ideyalarından güc alan Mehriban xanım Əliyevanın humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq reallaşdırdığı genişmiqyaslı layihələr onu xalqın sevimlisinə çevirib.**

Prezident İlham Əliyevin 21 fevral 2017-ci il sərəncamına əsasən Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin olunmasından 5 il ötür. Bu kiçik dövrə ekskurs edib nəzər yetirsək, əlbəttə ki, ölkəmiz, xalqımız adına çox böyük işlərin görüldüyünə şahidlik etmiş olarıq.

2016-cı il ölkəmizin tarixinə dərin islahatlar ili kimi düşdü. Bu islahatların müəllifi isə dünyada gedən siyasi prosesləri düzgün dəyərləndirərək milli maraqlarımız naminə tam müstəqil siyasət yürüdən, Azərbaycanı Avratlantika geosiyasi arealında öz sözü və mövqeyi olan dövlətə çevirən Prezident İlham Əliyevdir. Məhz ən islahatçı Prezidentin təşəbbüsü ilə keçirilən ümumxalq referendumunda seçicilərin etimadı xalqın dövlət başçısına inamının əyani göstəricisi idi. Xalq İlham Əliyevin elan etdiyi islahatlar konsepsiyasına birmənalı dəstəyini nümayiş etdirdi.

**Həmin ildə islahatların tərkib hissəsi kimi ölkəmizdə keçirilən ümumxalq referendumu ilə Konstitusiyaya dəyişikliklər edildi və Azərbaycanda yeni vitse-prezidentlik institutu yaradıldı. Eyni zamanda daha çevik idarəetmə mexanizmlərinin hüquqi bazası formalaşdırıldı. Yeni siyasi və iqtisadi islahatlar kursunun tərkib hissəsi olan dəyişikliklərin əsas mahiyyətini inzibati-hüquqi, ictimai-siyasi və sosial-iqtisadi sahələrdə keyfiyyət üstünlüyünü artırmaq, idarəçilik sistemini müasir çağırışlara cavab verən yönümdə təkmilləşdirmək təşkil edirdi.**

Vitse-prezidentlik vəzifəsinin təsis edilməsinin məqsədi dövlət strukturlarının fəaliyyətində səmərəliliyin və çevikliyin yüksəldilməsini, vətəndaşlar qarşısında öhdəliyin daha keyfiyyətli icrasına nail olunmasını, məmur məsuliyyətinin gücləndirilməsini təmin etmək idi. Bu baxımdan cənab Prezident tərəfindən vitse-prezidentlik institutunun yaradılması təklifinin ciddi əsasları var idi.

**Bu vəzifəyə Mehriban xanım Əliyevanın təyin edilməsi heç də təsadüfi deyildi. Çünki Mehriban Əliyeva həm Milli Məclisin deputatı kimi, həm də Heydər Əliyev Fondunun rəhbəri olaraq ölkə daxilində və beynəlxalq arenada mühüm layihələr həyata keçirirdi. Milli Məclisin deputatı olduğu zamanlar mütəmadi olaraq seçicilərlə görüşlər keçirir, onların qayğıları ilə maraqlanır, rəy və təkliflərini öyrənib, sosial problemlərinin həlli istiqamətində müvafiq tədbirlər görürdü. Seçicilərin dərin hörmət və rəğbətini qazanan Mehriban xanım Əliyeva parlamentdə dövlətimiz və xalqımızın maraqlarından çıxış edərək bir sıra vacib qanunların qəbul olunmasında yaxından iştirak edirdi. Bununla bərabər, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında fəal rol oynayır, təhsil, səhiyyə, mədəniyyət, incəsənət sahəsində həyata keçirdiyi layihələr bu istiqamətlərin inkişafına əvəzsiz töhfə verirdi. Həmçinin Azərbaycan həqiqətlərinin, mədəniyyətinin dünyaya tanıdılması istiqamətində gördüyü işlər beynəlxalq aləmdə böyük əks-səda doğurur, bu layihələr Azərbaycanın dünyadakı mövqeyini daha da möhkəmləndirir, ölkəmizin qədim mədəni-tarixi köklərə malik olduğunu sübuta yetirirdi.**

### *Yüksək səviyyəli təşkilatçılıq məharəti, özünəməxsus idarəçilik xüsusiyyətləri*

Vətəninə sonsuz sevgisi, milli-mənəvi dəyərlərə dərin hörməti, ölkənin ictimai-siyasi həyatındakı xidmətləri, xalqa olan tükənməz sevgisi onun ölkəmizin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmasını şərtləndirən əsas amillərdəndir. Bacarıqlı siyasi fəaliyyəti, yüksəksəviyyəli təşkilatçılıq məharəti, özünəməxsus idarəçilik xüsusiyyətləri, humanist yanaşma tərzi sayəsində Mehriban xanım Əliyeva bu vəzifənin öhdəsindən ləyaqətlə gəlir.

**Beş ildir ki, Birinci vitse-prezident vəzifəsində öz fəaliyyətini dövlətə, xalqa xidmət prinsipləri əsasında quran Mehriban xanım Əliyevanın bu dövrdə irəli sürdüyü və icrasına birbaşa rəhbərlik etdiyi layihələrin hər biri sosialyönümlüdür.**

Prezident İlham Əliyevlə birgə Mehriban xanımın ölkənin inkişaf strategiyasının hazırlanmasında, həyata keçirilməsində, həmçinin sosial, humanitar və iqtisadi layihələrin gerçəkləşməsində böyük əməyi var. Onun siyasi fəaliyyətinin kökündə humanizm dayanır. Mehriban xanım ölkənin sosial problemlərinin həllinə daha çox diqqət ayırır. O, hər zaman həssas əhali qruplarına qayğı ilə yanaşır, onların sosial ehtiyaclarının ödənilməsi üçün müxtəlif təşəbbüslər irəli sürür, bayramlarda, dövlətimiz üçün əlamətdar günlərdə onlara sovqatlar, hədiyyələr göndərilir.

İnsan yalnız həyatdakı əməlləri, xeyirxahlığı, gördüyü savab işlərlə əbədiyaşar olur, yaddaşlarda qalır, hafizələrdə iz buraxır, adı tarixə qızıl hərflərlə yazılır. Vətəni, xalqı üçün çalışan, təmənnasız xeyirxahlığı, humanistliyi həyat amalına çevirən şəxslərin ideyaları, xoş əməlləri gələcək nəsillər üçün nümunəyə çevrilir.

Mehriban xanım da öz fəaliyyəti ilə Azərbaycan qadınının müsbət obrazını yaradıb. O, istər ölkə həyatında, istərsə də beynəlxalq səviyyədə gördüyü nəcib və humanist işlərlə Azərbaycanı bütün dünyada uğurla təmsil edir. Bu xeyirxah əməlləri ilə Azərbaycan qadını adını ucalara qaldırır. Onun beynəlxalq səviyyədə əldə etdiyi uğurlar həm də Azərbaycan qadınının uğurudur. Fəxarətlə deyə bilərik ki, bu gün Azərbaycan qadını UNESCO və ICESCO-nun xoşməramlı səfiridir. Bu gün Azərbaycan qadınının təşəbbüsü ilə müsəlman ölkələrində xeyriyyə aksiyaları keçirilir, müsəlman uşaqların təhsili və sağlamlığı ilə bağlı davamlı layihələr reallaşdırılır, xarici ölkələrdə məktəblər tikilir. Görülən bu işlər xeyirxah və tərəqqipərvər missiyanın bütün dünya insanlarına faydalı olmaq məqsədi daşıdığını göstərir və dünya insanının savadlanmasına xidmət edir. Bir sözlə, Mehriban xanımın timsalında Azərbaycan qadınının xeyirxahlıq, mərhəmət, insanpərvərlik nümunəsinə şahidlik edirik.

### *Milyonların ümidi, pənah yeri*

**Bu gün bütövlükdə dünyanın, insanlığın bəlkə ən çox ehtiyac duyduğu məsələ xeyirxahlıq və mərhəmətdir. Mehriban xanım Əliyeva xeyriyyəçilik fəaliyyəti ilə Azərbaycanda bu sahədə sosial-fəlsəfi təməl yaratmaqla yanaşı, gələcək nəsillərə nəcib bir yolun əsas konturlarını göstərməkdədir.**

Bütün imkan və bacarığını insanların yüksək rifahı naminə humanitar proqramların reallaşmasına, Azərbaycanın dünyada sivil ölkə kimi tanınmasına yönəldən Mehriban Əliyeva həm də daim köməyə ehtiyacı olan insanların yanındadır.

İnsanlara bağlılığı onun daxilindən, mənəvi dünyasından, xoş münasibətindən irəli gəlir. Hər zaman elm, təhsil, səhiyyə sahələrində misilsiz xidmətlərinə, həmçinin xeyriyyəçilik xüsusiyyətlərinə görə Mehriban xanım Əliyeva xalqımızın qəlbində, yaddaşlarda, qayğıkeş, xoşməramlı məğrur Azərbaycan qadınının obrazını yaradıb. Çünki onun xidmətlərinin sevinci yüzlərlə insanın ömür səhifəsinə yazılıb, neçə-neçə ailəyə səadət bəxş edib, kimsəsizlərə həyat eşqi verib, onların qəlbində işıqlı sabaha inamı artırıb.

**Mehriban xanım Əliyeva bu gün həm də valideyn himayəsindən məhrum olan uşaqların mənəvi anası, böyük dayağıdır. Harada yardıma möhtac biri varsa, o, Mehriban xanımın pənahındadır. Birinci xanım xeyirxah qəlbinin səsi ilə bütün qüvvəsini, zamanını təmənnasız olaraq insanların rifahı, xoşbəxt yaşamı uğrunda sərf edir. Təsadüfi deyil ki, bu gün Azərbaycan Prezidentindən sonra insanların ən çox müraciət etdiyi şəxs məhz Mehriban Əliyevadır. Bu, bir daha insanların Birinci vitse-prezidentə olan tükənməz sevgisinin, etibarının, inamının göstəricisidir.**

Əlbəttə ki, bu xeyirxahlıqdan, nəcib əməllərdən, sosial layihələrdən danışarkən Mehriban Əliyevanın 2004-cü ildən bəri rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etməmək mümkün deyil. Artıq 18 ildir ki, əsasında mərhəmət, şəfqət, xeyirxahlıq kimi ali dəyərlər dayanan Heydər Əliyev Fondu öz prinsiplərinə sadiq qalaraq, təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirir.

Ümumiyyətlə, Heydər Əliyev Fondu tariximizə müstəqil dövlət qurucusu kimi daxil olmuş Ulu Öndər Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılıb. Xalqın milli-mənəvi dəyərlərini, tarixi kimliyini, milli özünəməxsusluğunu qoruyub saxlayan, həmçinin gələcək nəsillərə də ötürməyi bacaran Ulu Öndər Heydər Əliyev daim elmin, təhsilin, milli-mənəvi dəyərlərin böyük hamisi və qoruyucusu olmuşdur. Heydər Əliyev Fondu məqsədyönlü fəaliyyəti ilə hər zaman bu amala sadiqliyini nümayiş etdirir.

**Əldə olunan çoxşaxəli uğurlarımızda fondun prezidenti Mehriban xanım Əliyevanın rolu danılmazdır. Ümummilli Liderin mərhəmət, nəciblik və yüksək humanizmə əsaslanan saf ideallarının ictimai şüurda möhkəmlənməsinə çalışan, xalqımızın gələcəyi naminə bir sıra əhəmiyyətli layihələri inamla həyata keçirən Heydər Əliyev Fondu milyonların ümid, pənah yerinə çevrilmiş, qarşıya qoyduğu vəzifələri lazımınca yerinə yetirmək iqtidarında olduğunu sübut etmişdir. Məhz fondun misilsiz xidmətləri nəticəsində Azərbaycan həqiqətləri bu gün dünya ölkələrində yayımlanır, ölkəmizin siyasi, ictimai, mədəni mənzərəsi yüksək səviyyədə təbliğ edilir.**

Heydər Əliyev Fondu Azərbaycanın digər ölkələrlə dialoqunun genişləndirilməsinə də töhfəsini verir. Bu münasibət fondun beynəlxalq əməkdaşlığına gözəl imkanlar yaradır. Mədəni irsin qorunması üçün Heydər Əliyev Fondu bir sıra memarlıq abidələrini, o cümlədən Dünya Mədəni İrs Siyahısına daxil edilmiş Versal sarayını bərpa edib. Mehriban xanım Əliyeva müsahibələrinin birində belə deyir: "Fondumuz Parisdə on dördüncü əsrə aid Notr-Dam, Strasburq Kafedral kilsələrinin, İkinci Dünya müharibəsində dağılmış Berlin şəhər sarayının, həmçinin Vatikan arxivlərində saxlanılan Azərbaycan Orta əsrlər əlyazmalarının bərpa olunmasına kömək etmişdir. Mədəni və humanitar əlaqələrin qurulması ölkəmiz üçün böyük əhəmiyyətə malikdir. Mədəni əməkdaşlıq bir-birimizi necə tanıdığımızı üzə çıxarır, bir-birimizin tarixini, mədəniyyətini, ənənələrini necə bildiyimizi göstərir".

**Azərbaycanın birinci xanımının genişmiqyaslı proqram və layihələri sırasında təhsil sistemini təkmilləşdirmək və onun dünya təhsil sisteminə inteqrasiyasını təmin etmək məqsədi də dayanır. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı təhsil sahəsində saysız nailiyyətlərə səbəb olub. Bu layihə çərçivəsində yüzlərlə məktəb, onlarca uşaq bağçası və ixtisaslaşdırılmış uşaq məktəbləri tikilib, təmir olunub, yüksək standartlarla təchiz edilib. Belə müasir məktəblər yeni üfüqlər açır, şagirdlər üçün yeni imkanlar yaradır. Onun "Təhsilə dəstək" layihəsi tək Azərbaycanda deyil, bir sıra xarici ölkələrdə də həyata keçirilir, hətta xarici dövlətlərdə belə elmə və təhsilə diqqət göstərir. Belə ki, fondun təşəbbüsü ilə Yəhudi Təhsil Mərkəzi, Fransız Məktəbi yaradılıb. Pakistanın Müzəffərabad şəhərində qızlar üçün yeni məktəb tikdirib. Hollandiyada, Gürcüstanda, Misirdə, Rusiyada və Ruminiyada məktəblər tikilib və ya təmir edilib.**

Göründüyü kimi, Azərbaycanın birinci xanımının həyata keçirdiyi layihələr ölkə hüdudları ilə məhdudlaşmayıb, ümumbəşəri mahiyyəti ilə diqqəti cəlb edir. Birinci vitse-prezidentin xüsusən də Şərqlə Qərb arasında mədəni dialoqa nail olmaq, fərqli sivilizasiyaları bəşəri ideallar naminə bir araya gətirmək, dini tolerantlığı, multikulturalizmi gücləndirmək, gender bərabərliyini təmin etmək istiqamətindəki fədakar fəaliyyəti beynəlxalq miqyasda təqdir edilir.

**Bu gün Azərbaycan dünyada həm də idman ölkəsi kimi tanınır. Gənclərin sağlam şəraitdə böyüməsi, pis vərdişlərdən uzaq olması, ümumiyyətlə, ölkədə bədən tərbiyəsinin hərtərəfli inkişafı prioritet təşkil edir. Əminliklə deyə bilərik ki, dövlətimizin bütün dünyada tanıdılmasında, təbliğində Prezident İlham Əliyevin uğurla tətbiq etdiyi idman siyasətinin xüsusi yeri olub. Milli Olimpiya Komitəsinin və onun İcraiyyə Komitəsinin üzvü, həmçinin Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi Mehriban xanım Əliyeva da bu sahədə böyük işlər görüb, idman hərəkatının davamlılığına əvəzsiz töhfələr verib. Birinci Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının, gimnastika üzrə dünya kuboku yarışlarının ölkəmizdə yüksək səviyyədə keçirilməsi məhz onun adı və yüksək təşkilatçılıq keyfiyyətləri ilə bağlıdır. Təbii ki, bu cür beynəlxalq yarışlar ölkəmizə məxsus mədəniyyətin təbliğinə, idman ölkəsi kimi beynəlxalq miqyasda tanınmasına, beləliklə, ölkəmizə böyük turist axınına səbəb olub. Hamıya məlumdur ki, Azərbaycan COVID-19 virusu ilə mübarizədə nümunəvi ölkə olaraq bütün dünya dövlətləri tərəfindən təqdir olundu. Bu barədə hətta beynəlxalq təşkilatların iclaslarında da söz açıldı. Bu sahədə dövlət siyasəti ilə yanaşı, Heydər Əliyev Fondunun və onun rəhbəri Mehriban xanımın xidmətləri danılmazdır. Qlobal pandemiya dövründə fond minlərlə ailəyə yardım etdi, kimsəsizə əl tutdu.**

davamı səhifə 3-də

əvvəli səhifə 2-də

### Şəhid ailələri, müharibə əlilləri, məcburi köçkünlərin böyük dayağı

**Birinci vitse-prezidentin fəaliyyətində ən mühüm məqamlardan, istiqamətlərdən birini, bəlkə də birincisini şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, qaçqın və məcburi köçkünlərlə bağlı məsələlər təşkil edib.**

**Hər il, demək olar, bir neçə dəfə şəhid ailələri, Qarabağ müharibəsi iştirakçıları, qəhrəmanlarımızın, igidlərimizin ailələri ilə görüşür, onların problemlərini dinləyir və yerindəcə həllinə nail olmağa çalışır.**

# Azərbaycan naminə şərəfli missiya

## Mehriban xanım Əliyeva böyük dayaq, mərhəmət və xeyirxahlıq örnəyidir

**Bu gün torpaqları azadlıqda olan keçmiş qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində Azərbaycan dövləti tərəfindən görülən bütün işlərdə Mehriban xanım Əliyevanın əməyi və diqqəti həmişə minnətdarlıqla qarşılanıb.**

Hər il doğum gününü məcburi köçkünlərlə keçirən və həmin tədbirdə "Qarabağ şikəstəsini Qarabağda dinləmək" arzusunu ifadə edən Mehriban xanımın və xalqımızın arzusu çin oldu. 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin əsl sərkərdəliyi ilə Azərbaycan Ordusu Qarabağı düşmən tapdağından azad etdi və mədəniyyətimizin paytaxtı Şuşa şəhərində ifa edilən Qarabağ şikəstəsi bütün Azərbaycana yayıldı.

Vətən müharibəsi zamanı Mehriban xanım Əliyeva güclü qadın kimi şəhid ailələrini ailəsi bildi. Qarabağ müharibəsində əlil olan oğullara qardaş dedi, hələ də övladlarının yoxluğuna inanmayan, gözü yolda qalan anaları bağrına basdı, onlara ana dedi, qarşılarında baş əydi. Onun böyüklüyü, əxlaqı, görüb-götürdükləri, ailə dəyərləri böyük ehtiram və məhəbbətlə qarşılanır.

**Bu gün işğaldan azad olunan torpaqlarımızda erməni vandalları tərəfindən darmadağın edilmiş mədəni-dini abidələrimizin bərpası prosesi davam etdirilir. Ənənəvi fəaliyyətlə yanaşı, bu gün Heydər Əliyev Fondu azad edilmiş torpaqlarda geniş fəaliyyətə başlayıb. Fondun təşəbbüsü ilə bu torpaqlarda hazırda dini abidələrimizin əsaslı təmiri, bərpa edilməsi və inşası prosesinə start verilib. Şuşa şəhərində Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri, Ağdam şəhər məscidi və Zəngilan şəhər məscidi Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilir. Eyni zamanda Daşaltıda, Hadrutda və Şuşa şəhərində yeni məscidlərin tikintisi də məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilir.**

Şuşada fond tərəfindən bəzi obyektlərdə aparılan bərpa işləri cəmi bir neçə aya başa çatdırılıb. 2021-ci il avqustun 29-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Vaqifin muzey-məqbərə kompleksinin yenidənqurma işlərindən sonra açılışı olub.

Heydər Əliyev Fondunun dəstəyi ilə Şuşada həyata keçirilən layihələrdən biri də görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışıdır. Üzeyir bəy Hacıbəylinin Şuşadakı heykəli 1985-ci ildə 100 illik yubileyi münasibətilə ucaldılmışdı. Heykəltaraş Əhməd Salikov tərəfindən hazırlanan abidə 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilib. Fondun dəstəyi ilə Üzeyir bəy Hacıbəylinin bürüncdən hazırlanan heykəli Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb və ötən il avqustun 29-da açılışı olub. Heykəlin modeli qalmadığından yeni abidə o dövrün mətbuatında dərc olunan və arxivdə saxlanılan fotolar əsasında yaradılıb.

**Üzeyir bəy Hacıbəylinin Şuşadakı ev-muzeyi də Heydər Əliyev Fondu tərəfindən bərpa olunur. Şuşa şəhərindəki Xalçaçılıq Qalereyası, mühüm tarixi memarlıq abidəsi olan Mehmandarovların malikanə kompleksindəki təmir və bərpa işləri də Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib.**

2021-ci il ərzində Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı və dəstəyi ilə bir sıra mədəniyyət tədbirləri də reallaşıb. "Xarıbülbül" festivalı, Vaqif Poeziya Günləri respublikamızın həyatında böyük mədəniyyət hadisəsinə çevrilməklə yanaşı, xalqımızın Vətən müharibəsindəki Zəfərini, Şuşanın qədim Azərbaycan şəhəri olduğunu dünyaya bəyan etdilər. Həmçinin Vaqif Poeziya Günləri çərçivəsində Heydər Əliyev Fondu tərəfindən Şuşada "Qarabağ Azərbaycan mədəniyyətinin incisidir", "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" və "Yaddaş. Fotoqrafik tarix" sərgiləri də təşkil olunub. Bunlarla yanaşı, "Xarıbülbül" musiqi festivalı çərçivəsində Heydər Əliyev Fondu tərəfindən Ağdamda "Xarıbülbül" beynəlxalq incəsənət festivalı da keçirilib. İlk dəfə keçirilən festivalda 13 ölkəni təmsil edən 32 rəssam Vətən müharibəsində qazanılan tarixi Zəfərə həsr olunan nadir əsərlər ərsəyə gətiriblər. Layihənin əsas məqsədi müxtəlif ölkələri təmsil edən sənətkarlar vasitəsilə işğal altında olan ərazilərdəki dağıntının miqyasını, tarixi abidələrimizə, milli-mədəni irsimizə, mənəvi dəyərlərimizə, təbiətimizə qarşı qəsbkarlığı beynəlxalq auditoriyaya çatdırmaq olub.

**Fevralın 13-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ağdama səfəri çərçivəsində bu məsələyə toxunan dövlət başçısı dedi ki, bütün bu işləri Heydər Əliyev Fondu öz imkanları hesabına görür. Bu, Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsidir.**

### Ən sadiq silahdaş

**Xeyirxahlığına, yüksək bacarığına, diqqət və qayğısına görə hamının hörmətini, məhəbbətini qazanmış Mehriban xanım Əliyevanın ölkəmizin ictimai-siyasi və mədəni həyatındakı rolu mühüm, xidmətləri danılmazdır. Onun fəaliyyət dairəsi çoxşaxəli olub, həyatımızın bütün sahələrinə dərindən nüfuz edib.**

Bütün bu keyfiyyətlərin məcmusunu xarakterizə edən əsas cəhət isə, əlbəttə ki, Mehriban Əliyevanın müstəqil Azərbaycan dövlətinin yaradıcısı, Ümummilli Lider Heydər Əliyevin ideyalarının reallaşmasında cənab Prezident İlham Əliyevin ən yaxın silahdaşı olmasıdır. Bu gün Azərbaycan qadını Mehriban Əliyeva ilə, onun nüfuzu ilə haqlı olaraq fəxr edir, ondan nümunə götürür.

**Mehriban xanım Əliyevanın danılmaz xidməti, gördüyü işlər çoxşaxəli və misilsizdir. Birinci vitse-prezident kimi hər bir sahədə Prezident İlham Əliyevin həyata keçirdiyi kursun dəstəklənməsinə və uğur qazanmasına layiqli töhfələr verən Mehriban xanım Əliyevanın bu çərçivədə gördüyü işləri təhlil etsək, əmin olarıq ki, onun çoxşaxəli və geniş əhatəli fəaliyyəti Azərbaycanın bugünkü inkişafında çox böyük çəkiyə malikdir.**

Bu gün Mehriban Əliyeva özünə xas olan yüksək işgüzar və mənəvi keyfiyyətləri, dərin təşkilatçılıq və idarəçilik qabiliyyəti ilə ona həvalə edilən vəzifəni layiqincə daşıyır, ölkədə həyata keçirilən siyasi kursun uğur qazanmasına mühüm töhfələr verir.

Təkcə Birinci vitse-prezidentin ötənilki fəaliyyətinə nəzər yetirsək, görərik ki, Mehriban xanım Əliyeva ölkəmizin yüksəlişinə və beynəlxalq nüfuzunun daha da artmasına necə böyük töhfələr verib.

Ötən il fevralın 11-də Birinci vitse-prezident ICESCO tərəfindən elan olunan "Qadınlar ili" çərçivəsində keçirilən "Qadınlar və qızlar elmdə" videokonfrans formatında tədbirdə çıxış edib. ICESCO-nu 2021-ci ilin "Qadınlar ili" elan etməsi ilə bağlı təşəbbüsünə görə təbrik edən Mehriban Əliyeva bildirib ki, bu, yalnız təşkilat tərəfindən qadınların cəmiyyətimizdəki roluna verilən əhəmiyyətin təzahürü deyil, həmçinin onların daha firavan və təhlükəsiz dünya naminə misilsiz töhfəsinin təsdiqidir.

**Avqustun 26-da Birinci vitse-prezident Mehriban Əliyeva Xəzər rayonunun Mərdəkan qəsəbəsində Süleyman Rüstəm adına xarici dillər təmayüllü gimnaziyanın, Şüvəlan qəsəbəsində 12 saylı xüsusi internat məktəbinin yeni inşa edilən yataqxana korpusunun, Buzovna qəsəbəsində yenidən qurulan 229 saylı uşaq bağçasının açılışlarında iştirak edib.**

Sentyabrın 24-də Birinci vitse-prezident Bakının Xəzər rayonunun Binə qəsəbəsində yeni inşa edilən 88 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olub. Bütün bunlar bir daha göstərir ki, Heydər Əliyev Fondunun fəaliyyətində prioritet sahələr sırasında elm və təhsilin inkişafı üzrə proqram və layihələr xüsusi yer tutur. Fondun 2014-cü ildən reallaşdırdığı "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı bu sahədə mövcud problemlərin həllinə yönəlib. Heydər Əliyev Fondu qeyd olunan proqramı həyata keçirməklə bu istiqamətdə əhəmiyyətli töhfəsini verir. Proqram çərçivəsində təmirə ehtiyacı olan bağçaların yenidən qurulması və yeni bağçaların inşası həyata keçirilməkdədir.

**Autizm spektr pozuntulu uşaqlar üçün Bərpa Mərkəzi 2013-cü ildən fəaliyyət göstərir. Lakin indiyədək mərkəzin özünün daimi yerləşdiyi binası olmayıb. Ötən ilin sonunda Bakının Nizami rayonunda Heydər Əliyev Fondu tərəfindən yeni inşa edilən Autizm Mərkəzinin istifadəyə verilməsi autizm spektr pozuntulu uşaqlar üçün əsl hədiyyə oldu. Mərkəzin ötən ilin son günündə keçirilən açılışında Birinci vitse-prezident Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər.**

Göründüyü kimi, Birinci vitse-prezident Mehriban Əliyevanın ötən il həyata keçirdiyi fəaliyyəti həm çoxşaxəli, həm də məhsuldar olub. Bu fəaliyyətin təhlili göstərir ki, görülən bütün işlər, atılan addımlar yalnız bir məqsədə - Prezident İlham Əliyevin inkişaf strategiyasının uğurla reallaşmasına, Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsinə xidmət edir.

Əminliklə deyə bilərik ki, Mehriban xanım Əliyevanın ötən 5 ildə göstərdiyi fəaliyyət, gördüyü işlər çoxşaxəli və misilsizdir. Birinci vitse-prezident kimi hər bir sahədə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun dəstəklənməsinə və uğur qazanmasına layiqli töhfələr verən Mehriban Əliyevanın bu çərçivədə gördüyü işləri təhlil etsək, əmin olarıq ki, onun çoxşaxəli və geniş əhatəli fəaliyyəti Azərbaycanın bugünkü inkişafı içərisində çox böyük çəkiyə malikdir.

**Ötən beş ilin yekunları göstərir ki, Mehriban xanım Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti kimi bundan sonra da fəaliyyəti ilə Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi inkişaf strategiyasına layiqli töhfələr verəcək.**

**Səttar MÖHBALIYEV,
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri,
Milli Məclisin deputatı.
"Azərbaycan" qəzeti
20 fevral 2022-ci il**



# Səttar Möhbalıyev:

## "Moskva Bəyannaməsinin bütün müddəaları Azərbaycanın milli maraqlarına uyğundur"

**"Azərbaycanın qonşu dövlətlərlə münasibətləri mehriban qonşuluq prinsiplərinə əsaslanır, etibarlı tərəfdaş kimi hər zaman öz dəyişməz mövqeyini nümayiş etdirir. Dövlətimizin başçısı cənab İlham Əliyevin siyasi fəaliyyətinin əsas qayəsini regionda sülh və təhlükəsizliyin, sabitliyin təmin olunması təşkil edir. Təbii ki, bu, region dövlətlər tərəfindən yüksək qiymətləndirilir və Azərbaycanla əməkdaşlığa xüsusi önəm verirlər. Bu xüsusda Rusiya ilə münasibətlərimizi yüksək dəyərləndirərdim. Bütün sahələrdə əməkdaşlığımız yüksələn xətt üzrə inkişaf edir. Deyərdim ki, bu münasibətlər hər iki dövlətin qarşılıqlı maraqları çərçivəsində bütün sahələrdə özünü göstərir və hər iki dövlətin milli mənafeyinə əsaslanır. İqtisadi-ticari əlaqələrimizə nəzər salsaq görərik ki, bu sahədə ildən-ilə artım müşahidə olunur. Belə ki, əmtəə dövriyyəsinin həcmi 3 milyard dolları keçib. Bu da, təbii ki, yüksək göstəricidir. Ölkəmizdə qeyri-neft sektorunun sürətli inkişafında da şimal qonşumuzla əlaqələr mühüm rol oynayır. Bu sahədə istehsal olunan mallar daha çox Rusiya bazarlarına ixrac olunur".**

**Bu fikirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.**

**Onun sözlərinə görə, hal-hazıradək ölkələrimiz arasında hüquqi baza təşkil edən 245 sənəd imzalanıb: "Bunların arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında 1997-ci il tarixli Müqavilə, dostluq və strateji tərəfdaşlıq haqqında 2008-ci il tarixli Bəyannamə və hər iki ölkə prezidentlərinin 2018-ci il tarixli Birgə Bəyanatı münasibətlərimizin strateji xarakterini müəyyənləşdirib. Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfəri çərçivəsində fevralın 22-də Moskvada imzalanan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamə artıq münasibətlərimizi müttəfiqlik səviyyəsinə qaldırır. Bu da hər iki ölkənin milli maraqlarına tam cavab verir, xalqlarımız arasında mövcud olan dostluq bağlarını daha da möhkəmləndirəcək. Bəyannamə iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, təhsil, sosial sahələrdə, eləcə də səhiyyə, gənclər arasında əməkdaşlıq və idman sahəsində yaxınlaşmasında əhəmiyyətli rol oynayacaq. Müstəqillik, dövlətlərimizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı məsələsi bəyannamədə xüsusi olaraq vurğulanır və müttəfiqlik səviyyəsinə yüksələn münasibətlərimizin əsasını təşkil edir. Burada sülh və təhlükəsizlik məsələlərinə də xüsusi önəm verilir. Təbii ki, bu da dövlətimizin maraqları ilə tam uzlaşır.**

Bəyannamədə Azərbaycan Prezidenti, Ermənistan baş naziri və Rusiya Prezidentinin 9-10 noyabr 2020-ci il tarixli, 11 yanvar 2021-ci il tarixli və 26 noyabr 2021-ci il tarixli bəyanatlarının yer alması diqqətçəkən məqamlardandır. Bildirilir ki, bəyanatların müddəalarının həyata keçirilməsi üzrə səylərə bundan sonra da hər cür dəstək veriləcək. Buradan çıxış edərək deyə bilərik ki, Ermənistan tərəfi imzaladığı bəyanatlarla üzərinə düşən öhdəlikləri mütləq yerinə yetirməlidir. Bu, regionda sabitliyin davamlı olması baxımdan xeyli əhəmiyyətlidir. Qeyd edək ki, Azərbaycanın regionun lider dövlətinə çevrilməsi, qalib dövlət olaraq yaratdığı yeni konfiqurasiya, regionda sülh və təhlükəsizlik naminə səyləri, görünür, bütün dövlətlər, o cümlədən Rusiya tərəfindən də yüksək qiymətləndirilir və Azərbaycanla müttəfiqlik münasibətlərində maraqlıdır".

**"Ümumilikdə bəyannamə iki ölkə arasında mövcud olan münasibətlərin müttəfiqlik mərhələsinə keçməsinə şərait yaradır. Eyni zamanda iqtisadi əlaqələrin inkişafına, qarşılıqlı investisiya qoyuluşunun artmasına, turizm əlaqələrinin genişlənməsinə, bununla da xalqlarımızın rifah halının daha da yaxşılaşmasına yeni imkanlar açacaq. Yeri gəlmişkən, qətiyyətlə deyə bilərik ki, bəyannamə Ermənistanın uydurduğu digər bir mifin məhv olmasına gətirib çıxardı. Onlar uzun illər iddia edirdilər ki, Rusiya Ermənistanın ən yaxın müttəfiqidir. Hətta işğal altında olan torpaqlarımızı 44 günlük Vətən müharibəsində azad edərkən ermənilər Rusiyanın onlar tərəfindən döyüşəcəyini iddia edirdilər. Amma dövlətimizin başçısı cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət Ermənistanın bu kimi niyyətlərini puça çevirdi", -deyə Milli Məclisin deputatı bildirib.**

**AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi**

# ANIM MƏRASİMİ



Ermənistan silahlı qüvvələri tərəfindən Xocavənd rayonunun Qaradağlı kəndinin işğal edilməsindən və dinc sakinlərə qarşı həyata keçirilən soyqırımı cinayətindən 30 il keçir.

**Erməni işğalçılarına qarşı 4 il qəhrəmanlıqla mübarizə aparan Qaradağlı kəndi 1992-ci il fevralın 17-də işğal edilərək yandırılıb, dinc əhaliyə qarşı soyqırımı törədilib. İşğal zamanı 118 nəfər əsir götürülüb, 33 nəfər güllələnib. Ümumilikdə əsir götürülənlərdən 68 nəfəri öldürülüb, 50 nəfəri böyük çətinliklərlə əsirlikdən azad edilib. Əsir götürülənlərdən 10 nəfəri qadın, 2 nəfəri məktəbli olub. Azad olunanların 5 nəfəri qadın olmaqla, 18 nəfər aldıqları sağalmaz yaralardan sonralar vəfat edib. Qaradağlıya Ermənistan silahlı qüvvələrinin həmlələri zamanı qətlə yetirilənlərdən 10-u qadın, 8-i məktəbyaşlı uşaq olub. Qaradağlı kəndində 91 nəfər, kənd sakinlərinin hər 10 nəfərindən biri qətlə yetirilib. İşğal nəticəsində kənddə 200 ev, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər, azərbaycanlılara məxsus tarixi, dini, mədəni abidələr və qəbiristanlıq dağıdılıb. Kəndin 800-ə yaxın sakini məcburi köçkün düşüb.**

Qaradağlı faciəsinin 30-cu ildönümü münasibətilə Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının Xocavənd Rayon Komitəsinin üzvləri, Rayon İcra Hakimiyyətinin rəhbərliyi, hüquq-mühafizə orqanları, idarə və təşkilatlar və Beyləqan rayonu ərazisində məskunlaşan xocavəndli məcburi köçkünlər "Yeni Qaradağlı" qəsəbəsində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət ediblər. Qaradağlı kəndinin sakinləri, rayon ictimaiyyətinin nümayəndələri, şəhidlərin ailə üzvləri, keçmiş döyüşçülər abidə kompleksi önünə gül-çiçək dəstələri düzüb, şəhidlərin ruhuna ehtiramlarını bildiriblər. Anım mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov və İkinci Ordu Korpusunun komandiri general-mayor Mais Bərxudarov iştirak ediblər.

## Şəhid övladının ad günü qeyd edilib



**Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı (DİİXİHİ) Respublika Komitəsinin xidmətinə daxil olan Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Həmkarlar İttifaqı Komitəsi şəhid Pərvin Məmmədlinin övladı Mirayın 2 yaşını onun ailəsi - həyat yoldaşı, "ASAN xidmət"in əməkdaşı Pərvanə xanım Məmmədli ilə birlikdə qeyd edib. Komitə adından Miray balaya müxtəlif hədiyyələr təqdim olunub.**

## Qarabağ qazisi ilə görüş



**DİİXİ Hİ Sumqayıt Şəhər Komitəsinin əməkdaşları isə Əlillərin Reabilitasiya Mərkəzinin işçisi, II Qarabağ müharibəsinin qazisi Sahil Rauf oğlu Həsənlinin ad günündə iştirak ediblər. Əməkdaşlar Sahili əlamətdar gün münasibətilə təbrik edib və ona hədiyyələr bağışladılar.**

# "Xocalı - Bir millətin kədəri"



**Fevralın 19-da Qazax Rayon Mədəniyyət Mərkəzinin və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Qazax rayon Komitəsinin(MİHİ) təşkilatçılığı ilə "Virtual Qarabağ" İKT-nin Gənclər İctimai Birliyinin 26 - Fevral-Xocalı soyqırımına həsr etdiyi "Xocalı - Bir millətin kədəri" adlı filmin nümayişi təşkil olunub. Filmin nümayişindən öncə bütün Şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.**

Filmin nümayişindən sonra Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Qazax Rayon Komitəsinin sədri, Əməkdar mədəniyyət işçisi İsgəndər Qurbanov çıxış edərək bildirib ki, Xocalı faciəsini xalqımız heç vaxt unutmur. Bu faciə xalqımızın tarixinə qan yaddaşı kimi həkk olunmuşdur. O qeyd edib ki, 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin rəhbərliyi altında Ordumuz Şəhidlərin qanını yerdə qoymadı, erməni vandallarına onların layiq olduqları cəzanı verdi. Bu gün izlədiyimiz "Xocalı - Bir millətin kədəri" adlı film Xocalı həqiqətlərini dünyaya çatdırmağa, gənclərin vətənpərvər ruhda böyüməsinə, onların mənəvi tərbiyəsinə xidmət edən tarixi bir sənəddir. İ.Qurbanov filmin yaradıcı heyətinə və "Virtual Qarabağ" İKT-nin Gənclər İctimai Birliyinin rəhbəri, hazırda Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi Nurəddin Mehdiyevə öz minnətdarlığını bildirib. Bu filmin mədəniyyət müəssisələrində nümayiş etdirilməsinin vacib olduğunu qeyd edib.

**Mədəniyyət Mərkəzinin direktoru Zahidə Həsənova da çıxış edərək Xocalı soyqırımının insanlarda nə qədər faciəvi hiss oyatdığını qeyd edib. O bildirib ki, baxdığımız bu film bir daha sübut edir ki, xalqımız Xocalı soyqırımını unutmur və Xocalı soyqırımı daim yaddaşlarda qalır və qalacaqdır. O öz çıxışında filmin ərsəyə gəlməsində "Virtual Qarabağ" İKT Gənclər İctimai Birliyinə və filmdə zəhməti keçən bütün çəkiliş heyətinə öz minnətdarlığını bildirib.**

**Fevralın 18-də Təhsil Nazirliyi yanında İctimai Şuranın və "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə "Təhsilə ictimai baxış" adı altında növbəti müzakirə təşkil olunub.**



"Məktəb-valideyn tərəfdaşlığı: reallıqlar və yeni yanaşmalar" mövzusuna həsr olunan müzakirədə təhsil naziri Emin Əmrullayev, nazirlik nümayəndələri, İctimai Şuranın üzvləri, o cümlədən Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə, millət vəkilləri, təhsil ekspertləri, məktəb direktorları, valideyn və müəllimlər, QHT təmsilçiləri iştirak ediblər.

# "Təhsilə ictimai baxış"da məktəb-valideyn tərəfdaşlığı

**Giriş nitqi ilə çıxış edən Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Günel Səfərova bildirib ki, müzakirənin əsas məqsədi məktəb-valideyn tərəfdaşlığı ilə bağlı mövcud vəziyyəti öyrənmək, bu tərəfdaşlığın səmərəli qurulması və inkişaf etdirilməsi istiqamətində maraqlı tərəflərin fikirləri ilə tanış olmaq, beləliklə, məktəb-valideyn tərəfdaşlığı modelinin yeni formalarını hazırlamaqdır.**

Müzakirədə çıxış edən təhsil naziri Emin Əmrullayev təşkilatçılara təşəkkürünü bildirib və təhsildə ictimai məsuliyyətin bölüşdürülməsinin vacibliyini vurğulayıb. Təhsil naziri bildirib ki, problemlərin müəyyən edilməsi ilə yanaşı, onların həll yollarının müzakirəsi də önəmlidir.

**Nazir qeyd edib ki, Azərbaycanın təhsil siyasətinin mərkəzində uşaqlar dayanır və şagirdlərə yönəlik siyasətin həyata keçirilməsi daha vacibdir. Təhsil naziri bildirib ki, valideynlərin məktəbin idarə olunmasında iştirakının təmin edilməsi xüsusi əhəmiyyət kəsb edir.**

Çıxışında məktəb nüfuzunun yeni modelinin yaradılmasının, ümumi təhsil müəssisələrində ictimai nəzarət mexanizminin vacibliyini qeyd edən təhsil naziri maarifləndirmənin də düzgün aparılmasının önəmini ifadə edib.

**Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini Gülməmməd Məmmədov Şura və "T-Network" tərəfindən 13 580 valideyn arasında aparılan sorğunun nəticələrini təqdim edib.**

Müzakirədə Türkiyənin TED Universitetinin təhsil fakültəsinin dekanı Yüksel Kavak Türkiyə təcrübəsi barədə təqdimatla çıxış edib, Türkiyənin məktəb-valideyn tərəfdaşlığı modelini müzakirə iştirakçılarının diqqətinə çatdırıb.

**Tədbirdə digər çıxışlar da dinlənilib.**

# Qaliblərə mükafatlar təqdim olundu

**Fevralın 22-də Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı ilə ötən il dekabrın 24-də ali məktəb tələbələri arasında keçirilmiş "Nə? Harada? Nə zaman?" intellektual oyunun qalibləri mükafatlandırılıb.**



Tədbirdə çıxış edən Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə qalib komandaları təbrik edib, onlara təhsil sahəsində daha böyük nailiyyətlər arzulayıb.

**Mirzə müəllim deyib, yarışlar göstərdi ki, Azərbaycanın ali təhsil müəssisələri tələbə hazırlığını uğurla, yüksək peşəkarlıqla həyata keçirir. İntellektual oyunlara qatılan tələbələrin hər biri geniş biliyə malik olduğunu nümayiş etdirdi. Təbii ki, münsiflər heyəti seçim edərkən ən yaxşılara üstünlük verdi.**

M.Cəfərzadə Respublika Komitəsinin, universitetlərin ilk təşkilatlarının yarışların hazırlığı prosesində, keçirilməsində iştirakçılar üçün yaratdıqları şərait barədə də məlumatı diqqətə çatdırdı.

**Sonra qaliblərə - Bakı Mühəndislik Universiteti (I yer), Azərbaycan Dövlət İqtisad Universiteti (II yer) və Azərbaycan Memarlıq və İnşaat Universitetinin (III yer) komandalarına diplom və qiymətli hədiyyələr təqdim edildi.**

# "Ölməzliyin yolu ölümdən keçir"

**Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Gender Bərabərliyi və Qadın Problemləri üzrə Komissiyası Xocalı soyqırımının 30 illiyinə həsr olunmuş "Ölməzliyin yolu ölümdən keçir" mövzusunda vebinar keçirmişdir. Komissiyanın sədri, Respublika Komitəsinin Təşkilat şöbəsinin müdiri Elnarə Muradova və "Azərbaycan Bayrağı" ordenli, əməkdar həkim Məmməd Nağıyev geniş məruzə ilə çıxış etmişlər. Onlar Xocalıda erməni quldurlarının**




**törətdikləri vəhşilikdən danışmışlar. Qeyd etmişlər ki, Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində Ermənistan silahlı qüvvələrini məğlub edərək xocalıların, eləcə də soyqırıma məruz qalmış digər vətəndaşlarımızın qisasını aldılar.**

Tədbirdə AHİK-in şöbə müdiri Namiq Hüseynov və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin şöbə müdiri Əfsanə Gülməmmədova iştirak etmişlər.

# Düşərgə maraqlı anlarla yadda qalıb

**Şahbuz rayonunda yerləşən "Ağbulaq" İstirahət Mərkəzində "Qış Məktəbi" layihəsinə uyğun olaraq təşkil edilən sayca ikinci düşərgə başa çatıb.**



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, "Qış Məktəbi"ndə gənclər və idman naziri Ramil Hacı, Gənclər Fondunun icraçı direktoru, Milli Məclisin deputatı Cəbi Quliyev və Yeni Azərbaycan Partiyası (YAP) Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin sədri Arzu Qasımovla görüş keçirilib. Görüşdə iştirakçıların fikir və təklifləri dinlənilib, müxtəlif məsələlər ətrafında müzakirələr aparılıb.

Düşərgə müddətində "Numizmatika elmi" mövzusunda seminar, intellektual yarışma, "Kənd turizminin təbliği" adı altında müsabiqə, bədii yaradıcılıq gecəsi, "Nə? Harada? Nə zaman?" intellektual oyunu, tanışlıq və diskussiya xarakterli görüşlər keçirilib, iştirakçılar tərəfindən yumoristik səhnəciklər nümayiş etdirilib. "Qış Məktəbi"ndə fərqlənən komandalara sertifikatlar verilib.

**Qeyd edək ki, düşərgə Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, YAP Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyi və Həmkarlar İttifaqları Şurası tərəfindən təşkil olunub.**

*Xaricdə aparıcı ali məktəblərdə təhsil alanlar ölkəyə qayıdıb*

# Vətənə xeyir gətirsinlər

**Son dövrlərdə müzakirələrə səbəb olan aktual mövzulardan biri də dövlət proqramları vasitəsilə xaricdə təhsil aldıqdan sonra ölkəyə qayıdan və qayıtmayan gənclərlə bağlıdır. Bir qrup düşünür ki, bu, ölkədən kapital və beyin axınıdır, digər bir qrup isə hesab edir ki, bu, bizim xaricdə təmsil olunmağımız, lobbiçilik fəaliyyətimiz üçün yeni imkanlar yaradır.**

**“...İndi bir çox azərbaycanlı var ki, xaricdə işləyir, yaşayır. Mən bunu ancaq alqışlayıram. Nə qədər çox olsa, necə deyərlər, bizim adımızı onlar ucaldırlar. Amma eyni zamanda Azərbaycanda və xüsusilə Bakıda açılan yeni böyük müəssisələrdə və xidmət sektorundakı müəssisələrdə menecerlər, top-menecerlər xaricilərdir. Bu, belədir. Mən demirəm ki, bu, yaxşıdır, ya pisdir. Azərbaycan çox qonaqpərvər ölkədir, hər kəs üçün burada yer var və bunu alqışlayıram, onlar gəlirlər təcrübəni bölüşürlər. Amma eyni zamanda nə üçün xaricilərdir, çünki yerli kadrlar, hələ ki, tam uyğun deyillər. Ona görə xaricdə aparıcı ali məktəblərdə təhsil alanlar gəlib burada həmin bu vakansiyalarda işləsinlər və Vətənə burada xeyir gətirsinlər”. Bu fikirləri ölkə başçısı İlham Əliyev Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda bildirib. Həmçinin qeyd edib ki, biz gəncləri 30-dan çox ölkəyə, müxtəlif ölkələrin 300-dən çox ali məktəbinə ezam edirdik. Bu məqsədlər üçün 200 milyon manat vəsait xərclənib.**

**Mövzu ilə bağlı Təhsil Xidmətləri Araşdırma və Təhlil Mərkəzinin rəhbəri Kamran Əsədov dedi ki, hazırda Azərbaycanda 54 ali təhsil müəssisəsi fəaliyyət göstərir. Və bu qədər ali təhsil ocağında 164 mindən çox insan təhsil alır. Təəssüf ki, universitetlərimizin heç biri dünya reytinq cədvəlində yoxdur. Xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin sayı isə 40 minə yaxındır. Onlardan 15 mini qardaş Türkiyədə, 20 mindən çoxu Rusiya, Ukrayna, Gürcüstan universitetlərində təhsil alır.**

Azərbaycanlı gənclərin xaricdə təhsili ölkəmiz üçün yeni bir təcrübə deyil. Azərbaycan Gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı artıq 99 ildir ki, həyata keçirilməkdədir. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti ilə çıxdığımız yolu bu gün müstəqil Azərbaycan Respublikası uğurla davam etdirir. Qeyd edim ki, xarici ölkələrdə təhsil almaq üçün ölkə vətəndaşlarının iki yolu olur, ya dövlət proqramı çərçivəsində dövlətin vəsaiti ilə, ya da öz vəsaitləri hesabına. Dövlət proqramı çərçivəsində 2007-2015-ci illər ərzində 3500 dən çox azərbaycanlı gənc xarici ölkələrdə təhsil almağa gedib. Öz vəsaiti hesabına gedənlərin sayı isə 40 minə yaxındır. Bu il də gedənlərin sayı əvvəlki illərdən az olmadı. Hesab edirəm ki, bu, gələcəkdə ölkəmizə rəqabətədavamlı kadrların qayıtması ilə nəticələnməli və ölkənin inkişafına müsbət təsir göstərməlidir. Bu istiqamətdə lazımi tədbirlər görülməlidir.

**Azərbaycan dövləti tərəfindən həyata keçirilən xaricdə təhsil dövlət proqramı başa çatandan sonra xarici dövlətlər və onların ali təhsil müəssisələri tərəfindən tələbələrin cəlbi prosesi başlayıb.**

Əlbəttə ki, bu kimi proqramlar iki ölkə arasında bağlanmış müqavilələr əsasında tənzimlənir. Həmin universitetlər bu yolla reytinqlərini artıraraq gələcəkdə digər ölkədən, vətəndaşların öz vəsaitləri hesabına, tələbə cəlbinə təsir göstərməkdə maraqlı olurlar.

Çünki hər bir universitetin beynəlxalq reytinqinə orda təhsil alan xarici ölkə vətəndaşlarının sayı ciddi təsir göstərir.

K.Əsədov bir məqamı da qeyd etdi ki, miqrasiya prosesinin idarəolunmaz tərəfi kimi inkişaf etməkdə olan ölkələrdən intellekt axını, “beyin köçü” və yaxud “beyin axını” göstərilir.

**“Beyin axını” - yüksək ixtisaslı mütəxəssislərin öz ölkələrində normal yaşam tərzi qura bilməyərək xarici ölkələrə miqrasiya etməsidir. Anlayış elmi ədəbiyyata ilk dəfə Britaniya Kral Cəmiyyətinin hazırladığı hesabatdan sonra daxil olub. Belə ki, 1962-ci ildə mühəndis, texnik və alimlərin Böyük Britaniyadan ABŞ-a miqrasiya etməsindən sonra istifadə olunmağa başlanıb. “Beyin axını” hesabatı bütün dünyada səs-küyə səbəb olmuş və dünya alimləri “Brain Drain” anlayışını eyni mənada işlətməyə başlamışlar. Türkiyənin tanınan alimlərindən Muhammer Kaya hesab edir ki, yüksək təhsil səviyyəsi ilə fərqlənən, öz ixtisası üzrə mütəxəssis hesab olunan insanların vətənini tərk edərək güclü dövlətin ali, elmi, transmilli şirkətlərində səadət axtarması elmi-texniki inkişafa təkan verməklə yanaşı, onların vətəndaşları olduqları dövlətə ciddi zərbə vurur. Onu da əlavə edim ki, “beyin axını”, daha doğrusu, yüksək səviyyəli alimlərin onlar üçün əlverişli yerlərdə yığışması (məsələn, İkinci Dünya müharibəsi ərəfəsində və ondan sonra ABŞ-da toplanması) elmin və texnikanın güclü inkişafına gətirib çıxartdı. Elm və texnika isə elə şeydir ki, bu, yalnız konkret ölkənin malı olaraq qalmır, bütün bəşəriyyət bundan istifadə edir. Misal olaraq, kompüterləri, müasir telekommunikasiyanı, interneti, müxtəlif maşınları və başqalarını göstərmək olar. Yəni “beyin axını” bəşəriyyətin bütövlükdə inkişafına səbəb olur və son nəticədə kasıb ölkələr də bundan yararlanır.**

Lakin öz düşünən beyinlərini itirən dövlət sosial-iqtisadi sahədə geriləməyə məruz qalmaqla yanaşı, həyat səviyyəsinin aşağı düşməsi ilə də üz-üzə qalır. Beyin axını ölkənin iqtisadi tərəqqisini əngəlləyən maneələrdən biridir. Məsələn, Malayziya bu səbəbdən ortagəlirli ölkə səviyyəsindən yüksəkgəlirli ölkə səviyyəsinə çıxa bilmir. Dünya Bankının statistikasına əsasən, 25 yaşdan yuxarı xaricdə yaşayan 820 min malayziyalının 31 faizi, yaxud da 260 mini ali təhsillidir. Hələ 1997-ci ildə İranla bağlı aparılan tədqiqatda qeyd edilirdi ki, Amerikadakı universitetlərdə 4 min iranlı professor var. Bu elm adamlarından 500-ü isə ən yaxşı ABŞ universitetlərində təhsil və tədqiqatla məşğul olmaqdadırlar.

Azərbaycandan “beyin axını” daha çox Rusiya, Türkiyə və Qərbi Avropa istiqamətində olub. Dünya Bankının Dünya İnkişaf Hesabatında (World Development Report, 2013) qeyd edilir ki, Azərbaycan iqtisadiyyatına miqrantların göndərdiyi pul köçürmələri, 2000-ci ildə ÜDM-in 5,2 faizini təşkil edirdisə, 2010-cu ildə bu rəqəm, 2,7 faiz olmuşdur. Bununla yanaşı, Dünya Bankının iqtisadçıları tərəfindən Azərbaycan beyin axınının ən aşağı səviyyədə reallaşdığı ölkələr siyahısına daxil edilib. Bu göstərici ən çox Qana, Mozambik və Keniyada qeydə alınıb. Belə ki, beyin axını bu ölkələrdə 47, 45 və 38 faizdir.



**Ekspert vurğuladı ki, xaricə getmək çox da narahatlıq yaratmamalıdır, ancaq ölkə üçün əhəmiyyətli alimlərin elmin inkişafı məqsədilə ölkədə qalmaları mütləq sayılan şəxslərin xaricə getmələri təhlükəlidir. Bu mənada hesab edirəm ki, təhsil sahəsində çalışanların maaşlarının artmasına diqqət ayrılmalıdır. Bütün bunları nəzərə alaraq, rəqabətədavamlı iqtisadiyyatın formalaşdırılması üçün bu proqramın bərpa olunması vacibdir.**

Digər vacib amil isə, Azərbaycanda ehtiyac olan ixtisaslar üzrə gənclərin xarici universitetlərdə təhsil almağa göndərilməsidir. Çünki bir çox ixtisaslar üzrə onsuz da ölkədə kifayət qədər kadr hazırlığı həyata keçirilir.

**Eyni zamanda xaricdə, nüfuzlu universitetlərdə təhsil almış şəxslərə xüsusi güzəştlər etmək lazımdır.**

*Əsli TELMANQIZI*

# 2021-ci ilin yekunlarına dair hesabat dinlənildi



**Fevralın 21-də Fövqəladə Hallar Nazirliyi İşçilərinin Həmkarlar İttifaqının 2021-ci ilin yekunlarına həsr olunmuş hesabat-plenumu keçirilib.**

Plenumda İttifaqın sədri Mehman İsmayılov 2021-ci ildə görülən işlər haqqında geniş hesabat məruzəsi söyləyib.

Ötən il ərzində dövlət, milli və dini, peşə bayramlarında, eləcə də digər əlamətdar günlərdə İttifaq tərəfindən bir çox tədbirlər təşkil edildiyini diqqətə çatdırdı. Bildirdi ki, Vətən müharibəsində qəhrəmanlıq göstərən, hazırda işğaldan azad olunmuş ərazilərimizdə fədakarlıqla xidmət göstərən yanğınsöndürənlərimizin əməyi tərəfimizdən yüksək qiymətləndirilir, onlarla iş üstündə görüşlər təşkil edilir. Ən layiqlilərə mükafatlar elə iş yerlərində təqdim olunur. Biz bu fədakar üzvlərimizin görüşünə bayram sovqatları və xatirə hədiyyələri ilə gedirik.

Sədr deyib ki, Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin Bərdə şəhərinə endirdiyi raket zərbələri nəticəsində xidməti vəzifəsini yerinə yetirərkən şəhid olmuş FHN əməkdaşı Rəşad Vaqif oğlu Şəfiyevin ailəsi diqqətdə saxlanılıb, Aprel döyüşləri zamanı şəhid olmuş kiçik gizir Orxan Həmidovun FHN İşçilərinin Həmkarlar İttifaqı tərəfindən 2020-ci ilin sentyabr ayından himayəyə götürülmüş iki övladının hər birinə ayda 150 manat olmaqla, 300 manat məbləğində maddi yardım ödənilir.

**M.İsmayılov nəzərə çatdırıb ki, 2021-ci ilin yayında Türkiyə Respublikasında meşə yanğınlarının söndürülməsində və fəlakət zonasında zəruri axtarış-xilasetmə əməliyyatlarının yerinə yetirilməsində fərqləndiklərinə görə FHN-in bir qrup əməkdaşı İttifaqın Fəxri Fərmanı ilə təltif olunub.**

İttifaqın dəstəyi ilə FHN-in Akademiyasında, Qarabağ və Gəncə regional mərkəzlərində şəhid və qazi övladları üçün “Açıq qapı” günləri keçirilib, şəhid və qazi uşaqlarına hədiyyələr və Fəxri fərmanlar təqdim edilib.

İttifaq tərəfindən həmçinin üzvlərinin sağlamlığını qorumaq, əməkdaşların peşəkarlığını artırmaq və bölmələrarası əlaqələri intensivləşdirmək məqsədilə Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidməti ilə birgə yanğın-xilasetmə idmanı üzrə Respublika birinciliyi, “Ən yaxşı manqa” adı uğrunda və “Köpük verməklə ən yaxşı manqa” adı uğrunda baxış-müsabiqələri keçirilib.

Bundan başqa, nazirlik əməkdaşları müxtəlif sanatoriyalara və istirahət mərkəzlərinə yollayışlarla təmin olunub. Maddi imkanları aşağı olan, vəfat etmiş və ya ailə üzvlərindən birinin vəfat etmiş, eləcə də özü və ailə üzvü xəstələnmiş işçilərə maliyyə yardımları göstərilmişdir.

**Ümumilikdə ötən il İttifaqın maddi yardımından 555 nəfər işçi bəhrələnmişdir.**

2021-ci ildə yubiley yaşları tamam olan əməkdaşlar da həmkarlar ittifaqı tərəfindən Fəxri Fərmanla təltif edilib və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

Mehman İsmayılov çıxışının sonunda qeyd edib ki, FHN İşçilərinin Həmkarlar İttifaqı qarşısında duran bütün vəzifələrin həlli üçün bundan sonra da səylə çalışacaq, üzvlərinin əmək və sosial hüquqlarının təmin olunmasına daim yardım edəcək.

**Hesabat məruzəsi dinlənildikdən sonra İttifaqın digər illik cari məsələləri və 2022-ci il üçün qəbul edilmiş tədbirlər planı müzakirə olunub, komitə sədrlərinin təklifləri dinlənilib.**

# Əmək münasibətlərinin elektronlaşdırılması




## *qeyri-formal məşğulluğu məhdudlaşdıracaqmı....*

**Yaxın aylarda sahibkarların işini asanlaşdıran daha bir sistem işə düşəcək. Belə ki, əmək münasibətləri tamamilə elektronlaşdırılacaq. Məşğulluq, peşə ixtisasları, eləcə də təlim, peşə hazırlığı və digər xidmətlər daha əlçatan olacaq.**

Yeni sistemə əsasən, əmək müqavilələri və başqa kağız üzərində olan sənədləşmələr elektron formata keçəcək. **Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli** bildirdi ki, bununla da ölkədə kadr inzibatçılığı ciddi şəkildə təkmilləşdiriləcək. Eyni zamanda işəgötürənlər üçün digər böyük bir üstünlük ondan ibarət olacaq ki, kadr axtarışı, kadr seçmə prosesində yeni bir yanaşma ortaya qoyulur və bu sistem tətbiq olunandan sonra kadr axtarışı kifayət qədər rahatlaşacaq.

**Sahibkarlar axtardıqları işçini daha asan tapa biləcəklər, üstəlik, kağız üzərində görülən işlərə sərf olunan vaxta qənaət olunacaq. Müqavilələr, əmək kitabçaları, əmrlər, strukturlar, ştat cədvəlləri, ezamiyyə sənədləri hər biri kağız daşıyıcılarda həyata keçirilirdi. Sistemin fəaliyyətə başlaması ilə müəssisələrdə hesabatların kağız üzərində tətbiqetmə praktikası tədricən ləğv ediləcək. Kağız üzərində olan proses isə həm kifayət qədər texniki bir yük yaradır, həm də bu prosesin məlumatların əldə olunması onun data formatına keçirilməsini, təhlil imkanlarını kifayət qədər məhdudlaşdırır deyə, biz bunların tamamilə rəqəmsal bir mühitə keçməsini həyata keçirdirik.**

İdarə heyətinin sədri qeyd etdi ki, bu prosesdən sonra həm təhlil, həm əmək bazarının proqnozunun müəyyən olunması, gələcək əmək bazarına cəmiyyətin hazırlığı məsələlərində çox ciddi üstünlük müşahidə olunacaq. Bütün bunlar qeyri-formal məşğulluğa nəzarəti daha da asanlaşdıracaq. Əmək münasibətlərinin elektronlaşdırılması sisteminin mart ayında istifadəyə verilməsi nəzərdə tutulur.

Mövzu ilə bağlı **Vətəndaşların Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov** müxbirinizə bildirdi ki, işaxtaranlar və işçi axtaranların elektron portalda görüşməsinin təşkili hər iki tərəf üçün xeyirli olacaq. Lakin burada da müəyyən çətinliklərlə üzləşmə ehtimalı var. Məsələn, bilirik ki, əmək müqaviləsi ikitərəfli imzalanır. Hansısa kənddə, bələdiyyədə çalışan xadimənin də elektron imzası olmalıdır və ondan istifadəni bacarmalıdır. O, elektron sistemə daxil olub əmək müqaviləsini imzalaya biləcəkmi? Belə məsələlər olduğu üçün bu prosesin həlli, yəqin ki, mərhələli şəkildə tətbiq olunacaq. Bütövlükdə hesab edirəm ki, əmək münasibətlərinin elektronlaşdırılması sistemi kağız dövriyyəsini azaltdığı üçün mütərəqqi haldır. Amma bu prosesin qeyri-formal əmək bazarına nəzarəti, təhlili müəyyən qədər asanlaşdırsa da, qeyri-rəsmi məşğulluğun qarşısını tam alacağına inanmıram.

“Artıq beş ildir əmək müqavilələrinin elektronlaşdırılması prosesi davam edir. İndi isə əmək müqavilələri ilə bərabər, məşğulluğa aid kağız üzərində olan digər sənədlərin də tamamilə rəqəmsal mühitə keçməsi tətbiq olunacaq. Bu, işçi qüvvəsinin hərəkətini izləyə biləcək daha bir addımdır”.

**Bunu iqtisadçı-ekspert Rövşən Ağayev bildirdi. O qeyd etdi ki, ilkin mərhələ kimi əmək kitabçalarının elektronlaşması prosesi bu sahədə ciddi effekt vermədi. Belə ki, məşğul əhalinin sayı ilə muzdlu işçilərin say artımına nəzər saldıqda son beş ildə elə bir böyük fərq yaranmadı. Aidiyyəti qurum tərəfindən əmək müqavilələrinin sayının 200 minə qədər artdığı haqqında məlumat verildi. Amma bunu da elektronlaşmadan daha çox, 2019-cu ildən başlayaraq qeyri-neft sektorunda əməkhaqqına görə gəlir vergisinin 8 min manata qədər ləğv olunması ilə izah edirlər. Bu artımlar İqtisadiyyat Nazirliyinin dediyi kimi, gəlir vergisinin ləğv olunması, yoxsa 5 il ərzində elektronlaşmanın tətbiqi ilə bağlıdır? Bu sualı cavablandırmaq üçün təhlil aparılmadı. Burda başqa bir nüans da var, muzdlu işçilərin sayında daha az artım var. Əmək müqavilələrinin sayında isə nisbətən daha çox artım müşahidə olunur. Təxmin edilir ki, son illərdə iki iş yerində işləyən insanların əmək münasibətlərində leqallaşma prosesi daha sürətlə gedib. Yəni əslində bu elektronlaşmanın məqsədi daha çox leqallaşmadan ibarətdir ki, qeyri-formal işləyən insanlar əmək müqaviləsinə daha çox cəlb olunsun. Məsələn, Qazaxıstanda, Rusiyada əmək müqaviləsi ilə işləyənlər ümumi məşğulluğun 80 faizə qədərini təşkil edir. İnkişaf etmiş ölkələrin əksəriyyətində bu rəqəmlər 90 faizi göstərir. Bizdə isə 35 faizdir. Kimsə fikirləşsə ki, bu sahədə atılacaq hansısa addımlar nəticəsində əmək müqaviləli işçilərin sayını 60-70 faizə yüksəltmək mümkün olacaq, fikrimcə, bu, absurddur. Çünki, əvvəla, iqtisadiyyatımızın muzdlu iş potensialı o qədər deyil. Son 5 ildə ən sərt və ən stimullaşdırıcı tədbirlər nəticəsində həm gəlir vergisi, həm elektronlaşma hesabına 200 minə qədər leqallaşma müşahidə olundu. Səbəb bizim iqtisadiyyatımızda qeyri-leqal, muzdlu işə uyğun gəlməyən məşğulluğun daha yüksək olmasıdır. Məsələn, kənd təsərrüfatında muzdlu iş məhdud həcmdədir. Adətən kiçik ailə təsərrüfatlarıdır. Bu sahədə isə bir milyondan artıq insan çalışır. Eyni zamanda qeyri-formal çalışanlıarın çox hissəsi tikinti və ticarət sektorundadır. Dünyada da qeyri-rəsmi məşğulluq əsasən bu iki sektorda geniş yayılıb. Beynəlxalq Əmək Təşkilatının hesabatına görə, qeyri-leqal məşğulluq daha çox aşağı texnoloji imkanlara malik ölkələrdə olur. Orda insanlar əsasən təsadüfi gəlirlərlə yaşayırlar. Çünki yüksək texnoloji iqtisadiyyatlarda yüksək ixtisas tələb edilən mürəkkəb əmək və dayanıqlı iş yerləri olur. Daha çox fiziki əmək tələb edilən sahələrin çox olduğu inkişaf etməkdə olan ölkələrdə isə qeyri-rəsmi məşğulluğun faizi yüksəkdir. Ona görə də əmək münasibətlərinin elektronlaşdırılmasının qeyri-formal məşğulluğu məhdudlaşdıracağına bir o qədər inanmıram. Ticarət və xidmət sektorunda bəlkə yenidən yüz min iş yeri leqallaşsın. Amma ondan artığını gözləmirəm.**

Əsli ƏHMƏDOVA

# “Adam dəhşətə gəlirdi:

## yaralıların sızıltısından, uşaqların ağlamasından, balasını, doğmalarını axtaran insanların naləsindən...”

**1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri SSRİ-nin 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini işğal etdi və əhalisinə qarşı soyqırımı törətdi. Bu faciə Dağlıq Qarabağ münaqişəsi zamanı baş vermiş ən dəhşətli hadisələrdən biri, eyni zamanda dünya tarixində misli görünməmiş vəhşilikdir.**



Artıq Xocalı soyqırımından 30 il keçir. Düzdür, kitablarda, jurnallarda, internet səhifələrində faciə ilə bağlı saysız-hesabsız məlumatlar tapa bilərik. Ancaq düşündüm ki, bir jurnalist, bir vətəndaş olaraq, həmin dəhşəti iliyinə kimi yaşayıb hiss edən Xocalı sakinlərinin dilindən eşidib yazmaq, onların keçirdiyi hissləri qələmə alıb oxucuların diqqətinə çatdırmaq daha təsiredici olar. Şahidlərin dilindən o faciəni dinlədikcə özümü sanki hansısa qorxunc bir filmə baxırmış kimi hiss edirdim. Sonra düşünəndə ki, mənim qorxunc bir filmə bənzətdiyim bu dəhşətin hər zərrəsini əslində onlar yaşayıb, o zaman insanın damarında qanı donur.

**Müsahiblərim Xocalı sakinləri - o vəhşiliyin şahidləri olan Azərbaycanın Milli Qəhrəmanı, “Xocalının Mixaylosu” Tofiq Hüseynovun qızı Yasəmən Həsənova və Şahin Əzimovdur.**

**Yasəmən xanımın** həmin vaxtlar 10-11 yaşı olsa da, ancaq hadisələri bu günkü kimi xatırlayır: “Əslində Xocalı soyqırımının qığılcımları baş verdiyi gecədən xeyli əvvəl hiss olunurdu. Atışma səsləri mütəmadi olaraq eşidilirdi. Ancaq ağlımıza belə gəlməzdi ki, bu atışmalar qanlı basqınla nəticələnər. O qədər ki, 3 ay əvvəl evlənən bir kənd sakini qətlə yetirildi. Bu qətl şəhər sakinlərini vahiməyə saldı. Biz artıq evlərimizdə qala bilmirdik. Qaş qaralanda bütün rayon camaatı zirzəmilərə düşürdü. Çünki vəhşi ermənilər gecələr işıq gələn yerləri atəşə tuturdular. Əhali çox əziyyət çəkirdi: yeməyə çörəyimiz yox idi, qaz, işıq üzünə həsrət idik. Rayonun kişiləri müdafiə postlarında olurdu. Ən yaxşı halda 5 nəfərdən ya ikisində, ya üçündə ov tüfəngi olurdu. Düşmən tam silahlandırılmışdı. Bizimkilər isə silahsız idi”.

**Yasəmən xanım deyir ki, Xocalı sanki fincan, ermənilərin məskunlaşdığı kəndlər isə nəlbəki idi. Hara gedilsə də, orda erməni ilə rastlaşmamaq qeyri-mümkün idi: “Maşın yolu ilə 6-7 ay idi ki, əlaqə tamamilə kəsilmişdi. Bir Əsgəran yoluna ümid edirdik. Ancaq o yolla çıxmaq istəyən bir xala-balanın getdiyi maşının dəlik-deşik edilməsindən sonra artıq ümidimizi ordan da tamamilə üzdük. 21 nəfər sərnişin tutumu olan helikopterə isə 60 nəfəri güclə yerləşdirirdilər. O da bir-iki dəfədən sonra ümumiyyətlə gəlmədi. Qalırdı bircə meşəlik yolu. Soyuq fevral ayında qarlı meşəliklə getmək çox çətin idi. Demək olar ki, qocaların əksəriyyəti, ümumiyyətlə, rayonu tərk etmədilər. Gedə bilənlərin isə bəziləri o qarlı meşədən çıxa bilmədi, bəzilərinin də ayaqları sonradan donvurmadan kəsildi. Əsir düşənlər isə insanlığa sığmayan işgəncələrə məruz qaldılar.**

Əsirlikdən qayıdanlar danışırdı ki, onlara quyu qazdırıb şəhidlərimizin hamısını o quyuya tullatdırıb, elə əsirlərimizin özlərinə də yandırtdırırdılar. Təsəvvür edin, insanın əzizi gözünün qabağında işgəncələrlə öldürülsün, sonra sən onu öz əllərinlə quyuya tullayıb yandırasan...”.

Müsahibim həmin gecədən sağ çıxmasını taleyin qisməti ilə əlaqələndirir. Söyləyir ki, zirzəmidə o qədər çox adam, o qədər qarışıqlıq olurdu ki, demək olar, heç kimin bir - birindən xəbəri olmurdu: “Həmin gecədən sonra biz anam Məxmər, nənələrim Minəş, Zeynəb, babam Mirziyad, əmim Bakir, bibim Qətibə, xalam Məhbubə və onun iki azyaşlı övladı Çinarə və Çingizdən xəbər ala bilmədik. Atam Tofiq Hüseynov batalyon komandiri idi. Fevralın 29-da ermənilər atamı mühasirəyə alıb əsir götürmək istəyib, ancaq o,



meşənin dərinliyinə gedərək özünü qumbara ilə partladaraq şəhid etmişdi. Onun nəşi martın 19-da Bakıya gətirilərək Şəhidlər xiyabanında dəfn edildi. Mənə qaldıqda isə, biz xalamla meşə yolu ilə Ağcabədi rayonunun Hindarx kəndinə gəldik. Bir neçə gün orda qaldıqdan sonra əmim bizi, Şuşa türməsinə salınaraq əsir götürülən digər əmimin iki övladını Ağdama apardı və bizi böyüdüb boya-başa çatdırdı”.

**Müharibənin ən dəhşətli anlarından biri də odur ki, insan özünün, ailəsinin, doğmalarının əsir düşməyindənsə, şəhid olmasını arzulayır. Necə ki, hadisədən 16 il sonra təsadüfən internet kanallarının birində rus jurnalisti Viktoriya İvlevanın Xocalı ilə bağlı hazırladığı reportajda anasının şəklini ekranda şəhid olanlar siyahısında gördüyünə sevinən Yasəmən xanım kimi. Buna səbəb isə əsirlikdən qayıdanların danışdıqları, onların başına gətirilən olmazın işgəncələrə anasının məruz qalmaması idi.**

**“Yasəmən xanım, 30 ildən sonra torpaqlarımız azad olundu. Düzdür, hələ Xocalıya gedə bilməsək də, o günlər də uzaqda deyil. Düşünəndə ki, doğma torpağınıza, yurdunuza 30 ildən sonra ayaq basacaqsınız, o zaman nə hisslər keçirirsiniz?”** sualını cavablandıran müsahibimin səsinin titrəməsindən hansı hissləri keçirəcəyini təxmin etmək o qədər də çətin olmadı: “İnanın ki, mən bunun xəyalı ilə yaşayıram. İstəyirəm ki, yenidən doğulub boya-başa çatdığım evimizə girəm, evimizin yanındakı bulağa gedib ordan su gətirəm, atamın məzarını öz doğma torpağına köçürəm, anamın şəhid olduğu yerlərə gedib “ana, mən gəlmişəm, artıq burdayam”, deyəm. Bilirəm ki, onun ruhu hələ də ordadır, mənim gəlməyimi gözləyir...”.

**Xocalı sakini Şahin Əzimov “Xocalı faciəsi zamanı mənim öz gözlərimlə gördüyümü Allah heç kimə göstərməsin”,-deyir. Təkcə bu cümləni eşitmək, onu dərk etmək kifayət edir ki, sən hadisənin nə dərəcədə dəhşətli olduğunun fərqinə varasan. Bəli, o dəhşətin hər anına o zaman 17 yaşı olan Şahin şahid olmuşdu. Şahin müəllim deyir ki, Kərkicahan, Cəmilli, Malıbəyli və Quşçular kəndləri ermənilər tərəfindən yandırılıb camaatı çıxarılandan sonra artıq hiss olunurdu ki, sıra Xocalıya da çatır: “Fevralın 25-də gecə təxminən saat 10-11-in yarısı Xocalı dörd bir yandan ermənilər tərəfindən mühasirəyə alındı və şiddətli atışma başladı. Əvvəllər də atışma səsləri gəlirdi, fikirləşdik ki, bu da yəqin onlardan biridir. Ancaq məşhəti türkləri üçün tikilmiş fin evlərə od vurulub yandırılanda başa düşdük ki, artıq Xocalı və sakinləri təhlükədədir. Əlində silahı olan hər kəs vuruşurdu. Qadınlar, uşaqlar, qocalar evlərin və binaların zirzəmisinə doluşmuşdular. Şəhər, demək olar ki, od tutub yanırdı, insanlar vahimə içində idi. Saat 3-4 radələri olardı, dedilər sağ qalanlar meşəyə qaçsın. Mən, atam, anam, əmim və iki nəfər qonşumuz birlikdə meşəyə tərəf qaçdıq”.**

> **“Xocalı faciəsi zamanı mənim öz gözlərimlə gördüyümü Allah heç kimə göstərməsin”**

Şahin müəllim təkcə özünün deyil, xeyli sayda insanın da həyatının xilas olmasına kömək edib: “Yaxınlıqda 2-3 mərtəbəli panel evlər var idi, camaat onun zirzəmisinə doluşmuşdu. Onların xəbəri yox idi ki, biz artıq şəhəri tərk edirik. Tez ora qaçıb dedim ki, burdan çıxın, meşəliyə tərəf gedək. Meşəyə çatdıqda bəlkə də iki min insanın ora toplaşdığını gördük. Dedilər ki, Ağdam istiqamətinə gedək. Təsəvvür edin, qışın soyuğunda, şaxtalı gecədə o qədər insan - uşaq, qadın, yaşlı, cavan, yaralı - hər kəs Qarqarçayı keçmək məcburiyyətində qaldı. Adam dəhşətə gəlirdi: yaralıların sızıltısından, uşaqların ağlamasından, balasını, doğmalarını axtaran insanların naləsindən...



**Səhər yenicə açılırdı. Əkin yeridir, hər tərəf şum, bacımın yaşlı qayınanasını - Çiçək xalanı gətirirəm deyə dəstədən xeyli geridə qalmışam. Hiss etdim ki, BTR gəlir. Çiçək xalaya dedim, cəld ol, BTR bizi ayaqlayacaq. Yazıq qadın Xocalıdan ayaqyalın çıxıb, yorğundu deyə yeriyə bilmir. Birtəhər dəstəyə çatmağa çalışdıq. Bir az qabağa gəlmişdim ki, gördüm atışma başladı, əmim də döyüşürdü. Hələ başa düşmürəm ki, artıq ermənilər burda da bizi hər tərəfdən mühasirəyə alıblar. Baxdım ki, nə qoca, nə uşaq, nə qadın deməyib, hər kəsi öldürürlər. Qaçdım ki, ata-anamı axtarım. Güllələrdən qorunmaq üçün kolların dibində gizlənmək istədim. Hansı kola yaxınlaşırdım hər tərəf meyit, yaralı. Təsəvvür edin, gizlənməyə yer belə yox idi. Dəhşətə gəlmişdim, bilmirdim nə edim. Axır özümü birtəhər toplayıb cığırla qaçmağa başladım. Elə düz atamla anamın olduğu yerə çatdım. Bir övlad üçün ən dəhşətli səhnə idi o an: atam, anam yaralı, ikisinin də hər iki ayağı qırılıb, hərəkət edə bilmirlər, qıraqda əmimin 6 yaşlı nəvəsi Aynurun və qonşumuz Teybə xalanın cansız bədənləri var. Ağlamağa başladım. Anam dedi ki, “bala, dur qaç burdan”. Anama çox güllə dəymişdi. Atam dedi ki, get qardaşını tap gətir, ananı burdan çıxardaq. Hər tərəf cəsəd, 17 yaşlı uşaq bu cəsədlərin arası ilə qaçaraq ağlaya-ağlaya qardaşını axtarır, bir tərəfdən də başımın üstündən güllələr gedir. Kimə yaxınlaşıram ya dünyasını dəyişib, ya da ağır yaralıdı. Çalışıram sağ qalım ki, ata-anamı burdan çıxara bilim. Bir su kanalı var idi, içində su yox idi, istədim ora girim. Baxdım o qədər meyit, yaralı var ki, mümkün deyil gizlənmək. Təsəvvür edin, o qədər ağlayıram, göz yaşlarımdan qabağı seçə bilmirəm. Ağdama gedən yolun istiqamətini də itirmişəm. Soruşacaq bir kimsə də qalmayıb. Nəhayət, bir xeyli gözlədikdən sonra ermənilərin təpənin arxasına keçdiyini görüb mən və digər 4 nəfər (ikisi yaralı idi) birtəhər Ağdam yolunu tapıb ordan sağ-salamat çıxa bildik.**

Onu da qeyd edim ki, bütün bu danışdıqlarım gördüklərimin hamısı deyil. Elə şeylərin şahidi olmuşam ki, onları dilə gətirib danışa bilmərəm...”.

Şahin bəy deyir, Ağdam azad olunanda çox sevinib. Çünki atası, anası və qohumları Ağdamda Şəhidlər xiyabanında dəfn olunmuşdu: “İşğaldan azad olunduqdan sonra Ağdama getdim, sevincimin həddi-hüdudu yox idi, düşünürdüm ki, gedib onların məzarını görəcəm. Ancaq qəddar düşmən o məzarları da qazıb dağıdıblar.

Biz artıq işğaldan azad etdiyimiz torpaqlarımıza qovuşduq. İnanıram ki, 30 il bundan öncə tərk etmək məcburiyyətində qaldığımız doğma Xocalımıza da ayaq basıb o torpaqlarda yenidən gəzəcəyimiz günlər çox yaxındır”.



**Xocalı soyqırımı elə bir faciədir ki, bu faciədən neçə 30 illər ötsə də, yenə də heç zaman sağalmayan yaramız kimi qalacaq. Bizim borcumuz bir vətəndaş olaraq gələcək nəsillərə, əsasən də dünyaya bu soyqırımı tanıtmaq, ordakı insanların yaşadığı faciəni nümayiş etdirmək olmalıdır.**

# Azərbaycan separatçılara qarşı qısamüddətli hərbi antiterror əməliyyatlar planlaşdırmalı və həyata keçirməlidir

**Bir neçə gün öncə Qarabağdakı mülki ermənilər Ağdərənin Maqavuz kəndi ərazisində Ağdərə-Kəlbəcər yolu ilə hərəkət edən Azərbaycana məxsus yük maşınlarından ibarət karvanın qarşısını kəsmiş və nəticədə həmin yük maşınları geriyə - Suqovuşana qayıtmağa məcbur olmuşdular. Belə ki, həmin vaxt ermənilər əraziyə çoxlu sayda avtomobil yığaraq, yük maşınlarından ibarət karvanın keçidinin qarşısını almışlar. Məlum məsələdir ki, ermənilərin yolu kəsəcəyini rus hərbçiləri öncədən bilməmiş olmazdılar. Ancaq bunun qarşısını almaq üçün heç bir addım atmayıblar.**

Baş verən bu hadisə yenə də ermənilərin təxribatıdır. Bəs nə üçün sülhməramlılar bu cür hadisələrə göz yumur? Baş verəcək bu cür halların qarşısını almaq üçün bizim güc strukturlarımızın orada fəaliyyəti nə dərəcədə lazımlıdır?

“Artıq bu, neçənci dəfədir ki, Qarabağ bölgəsinin sülhməramlı qüvvələrin məsuliyyət zonasına daxil olan ərazilərində erməni separatçı qüvvələri tərəfindən Azərbaycan Ordusunun hərbçilərinə qarşı təxribat xarakterli addımlar mütəmadi hal alır”. Bunu **“Qafqaz: əməkdaşlıq və inteqrasiya” klubunun sədri, politoloq Anar Əliyev** mövzu ilə bağlı fikirlərini bildirərkən dedi. Bildirdi ki, Xankəndində separatçı qüvvələrin dırnaqarası parlamentləri tərəfindən “işğal olunmuş ərazilərin azad olunması” ilə bağlı qanunun qəbul edilməsi, “prezident” seçkiləri zamanı şou xarakterli bəyanatların səsləndirilməsi, Ağdam ərazisində separatçı qüvvələrin silahlı şəxsləri tərəfindən səngər qazılmasına cəhd göstərilməsi və nəhayət, son hadisə - Kəlbəcərə gedən Azərbaycan yük avtomobillərinin qarşısının kəsilməsi və onların geri qaytarılması onu deməyə əsas verir ki, Rusiya sülhməramlı qüvvələri öz fəaliyyətlərinə və məsuliyyətlərinə tam ciddiyyəti ilə yanaşmırlar. Eyni zamanda Qərb dairələri, dünya gücləri tərəfindən müxtəlif istiqamətlərdə revanşist qüvvələrə və separatçılara dəstəklərin nümayiş etdirilməsi onlarda əsassız inamların yaranmasına, bu da əldə olunmuş sülhə qarşı




təxribatların törədilməsinə gətirib çıxarır: “Hesab edirəm ki, 10 noyabr bəyanatının 4-cü bəndinin tələbindən irəli gələrək Azərbaycanın Qarabağ bölgəsində rus sülhməramlı qüvvələrinin fəaliyyətini tənzimləyəcək Rusiya-Azərbaycan ikitərəfli müqaviləsi imzalanmalıdır. Bu müqavilədə sülhməramlı qüvvələrin fəaliyyət istiqamətləri, məsuliyyətləri və çərçivələri müəyyən olunmalı, bundan sonra sülhməramlı qüvvələrin hansı addımları atmaq səlahiyyətləri dəqiqliklə qeyd olunmalıdır. Qarabağda, xüsusilə də Azərbaycan və Ermənistan sərhəddində təxribatların davamlı xarakter alması, bu təxribatların Rusiyanın patronajlığı altında həyata keçirilməsi və sülhə təhlükə yaratması ilk növbədə Rusiyanın nüfuzuna zərbədir. Ona görə də hesab edirəm ki, Azərbaycan qısa müddət ərzində Rusiya sülhməramlı qüvvələrinin fəaliyyət zonasına daxil olan ərazilərdəki separatçılara qarşı qısamüddətli hərbi antiterror əməliyyatı planlaşdırmalı və həyata keçirməlidir. Erməni silahlı qüvvələrinin təxribatlarının həm də Rusiyanın maraqlarına zidd olduğunu nəzərə alsaq, düşünürəm ki, Rusiya Azərbaycanın bu antiterror əməliyyatlarını həyata keçirməsinə kəskin, aqressiv reaksiya nümayiş etdirməyəcək və Rusiya-Azərbaycan münasibətlərinin strateji müttəfiqlik ruhu qorunmaqla, Azərbaycan öz əraziləri daxilində separatizmin qarşısının alınmasına nail olacaqdır. Və mən bir nüansı da qeyd etmək istəyirəm ki, Şuşa Bəyannaməsindən irəli gələrək Türkiyə Silahlı Qüvvələrinin Qarabağda sülhyaratma missiyasında birbaşa iştirakı, yəni ərazidə fəaliyyətə cəlb edilməsinə nail olunması bu təxribatların qarşısını almağa və bölgədə əldə olunmuş sülhün davamlılığının təmin olunmasına böyük xidmət göstərmiş olar”.

**Politoloq İlyas Hüseynov dedi ki, baş verən bu cür hadisələr barədə Azərbaycan tərəfi Rusiyanın Müdafiə Nazirliyinin Baş Qərargahını və eləcə də sülhməramlıların komandanlığını xəbərdar etməlidir. Eyni zamanda Azərbaycan Ermənistan-Azərbaycan sərhəddində yerləşən bölgələrdə - Laçın, Kəlbəcər, Zəngilan, Qubadlı ərazisində daha da güclü hərbi texnikasını yerləşdirməlidir. Çünki ötən ilin noyabr ayının 16-da baş vermiş hərbi təxribat göstərdi ki, sülh çox kövrəkdir, Ermənistanla sülh müqaviləsi hələ imzalanmayıb və bu müqaviləyə aparan yolda da düşmən tərəf müxtəlif maneələr törədir.**

**Səhifəni hazırladı:
Aliyə SƏMƏDOVA**




# Maliyyə hesabatı dinlənildi

**Fevral ayının 18-də "Xidmət-İş" Həmkarlar İttifaqları Federasiyası növbəti vebinar keçirib. Vebinarda Federasiyanın və üzv təşkilatların ötənilki maliyyə fəaliyyətinin hesabatı müzakirə olunub. Tədbirdə giriş sözü söyləyən Federasiyanın vitse-prezidenti Cəmaləddin İsmayılov bildirib ki, pandemiya ilə bağlı üzvlərimizin sayında cüzi də olsa azalma qeydə alınıb. Buna baxmayaraq, üzvlük haqlarının yığımında gecikmə halları olmayıb. Alınmış yollayışlar sifarişlərə əsasən bölüşdürülüb, istifadə olunmuş yollayışların qismən dəyəri tam toplanılıb və bütövlüklə DSMF-nin hesabına köçürülmüşdür.**

**Tədbirdə Gəncə ŞHİK sədri Ələddin Səmədov, Qəbələ RHİK sədri Ramin İsmayılov, Abşeron RHİK sədri Kamran Orucov, Şəki RHİK sədri Mirpaşa İsmayılov və başqaları çıxış edərək COVID-19 pandemiyası dövründə ittifaq üzvlərinin sayını artırmaq, maliyyə vəziyyətini yaxşılaşdırmaq məqsədilə maarifləndirmə işlərinin gücləndirilməsinin vacib olduğunu bildirdilər.**

# Vergi orqanı nağdsız ödənişləri daha da artırmaq istəyir



**Koronavirus pandemiyası qlobal iqtisadiyyata və maliyyə bazarlarına həm də yeni iqtisadi münasibətlər gətirdi. Nağd pulun pandemiyanın yayılmasında aktiv rol oynaması beynəlxalq maliyyə təşkilatlarını qeyri-nağd ödənişlərə daha geniş yer verməsi çağırışları ilə üz-üzə qoydu. Çünki pandemiya hələ bitməyib və yaxud qarşıdakı illərdə digər pandemiyaların olacağı istisna deyil. Beynəlxalq səhiyyə orqanları xəbərdar edirlər ki, təkcə koronavirus deyil, digər yoluxucu infeksiyalar da pul nişanları vasitəsilə yayılır. Nağd pul nişanlarının təkrar tədavülə buraxılmamışdan əvvəl emaldan keçirilməsinə baxmayaraq, virusun yayılma ehtimalları qalır. Virus törədiciləri banklarda istifadə olunan və beynəlxalq təcrübədə ən son texnoloji standartlara cavab verən avtomatlaşdırılmış banknot emalı avadanlıqlarında yüksək təzyiqli hava axınları vasitəsilə müxtəlif tozlardan təmizlənərək, eləcə də xüsusi infraqırmızı və ultrabənövşəyi şüalandırmadan və yüksək temperatur rejiminə malik sistemlərdən keçməklə çirklərdən sterilizasiya olunan pullarla yenidən yayıla bilir. Bu isə artıq nağd puldan imtina məsələsini daha da aktuallaşdırır.**

Məhz bu kimi amillərdən irəli gələrək onlayn ödənişlərin, qeyri-pul alətlərinin geniş tətbiqi barədə bütün ölkələrin mərkəzi banklarına müraciət ünvanlanıb. Təbii ki, bu müraciət Azərbaycana da aiddir. Azərbaycan Mərkəzi Bankı (AMB) da bu çağırışlara qoşularaq ölkədə rəqəmsal ödənişlərin inkişaf etdirilməsi ilə bağlı Yeni Yol Xəritəsi hazırlayıb. "Azərbaycan Respublikasının Mərkəzi Bankının 2021-2023-cü illər üçün rəqəmsal ödəniş strategiyası"nın hədəflərinə uyğun olaraq, ödəniş və informasiya sistemlərinin sabit və etibarlı fəaliyyətinin təmin edilməsi, bank olmayan ödəniş xidməti təchizatçılarının nəzarət çərçivəsinin yaradılması, Milli Ödəniş Sistemi infrastrukturunda ən qabaqcıl beynəlxalq standartının tətbiq edilməsi və Ani Ödəniş Sisteminin əhatə dairəsinin genişləndirilməsi kimi prioritetlər nəzərdə tutulub.

Hazırda ölkəmizdə fəaliyyət göstərən 25 mindən çox təsərrüfat subyektində nağdsız ödənişlər qəbul edən POS-terminal quraşdırılıb. Eyni zamanda nağd puldan istifadəni minimallaşdırmaq üçün kütləvi xarakter daşıyan xidmətlər, xüsusilə də kredit, kommunal, mobil telefon və digər ödənişlərin internet üzərindən və ya bankların təqdim etdiyi mobil və internet bankçılıq xidmətləri mövcuddur. Ancaq bu xidmət alətlərindən istifadə lazımi səviyyədə deyil.

**AMB-nin hədəflədiyi bu tədbirlərin həyata keçirilməsində Dövlət Vergi Xidmətinin üzərinə də bir sıra vəzifələr düşür. Ölkədə biznes subyektləri və dövlət strukturları arasında nağd dövriyyənin həcminin minimuma endirilməsi və nağdsız ödəniş mühitinin genişləndirilməsi, nəticədə bank sektorunun maliyyə resursları bazasının gücləndirilməsi kimi strateji məqsədlər həm də vergi orqanlarının Tədbirlər Planına aiddir. Çünki vergi və rüsumların nağd qaydada ödənilməsi vergi orqanlarının apardığı mübarizə proqramında əsas yer turur və Vergi Xidməti maksimum şəkildə bütün ödənişlərin nağd yolla aparılmasına çalışır. Vergi orqanlarının ən çox diqqət yönəltdiyi başlıca hədəf "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması və şəffaflığın artırılmasıdır. Nağd puldan istifadənin azaldılması daha çox vergi toplanmasına səbəb olur. 2021-ci ildə vergi orqanları proqnozdan əlavə 1,5 milyard manata yaxın əlavə vergi toplayıb ki, bunun da böyük bir hissəsi məhz nağdsız ödənişlərin dövriyyəsinin artması hesabına əldə edilib. Qeyd edək ki, Azərbaycanda dövriyyədə olan nağd pul kütləsinin manatla geniş pul kütləsində xüsusi çəkisi 2017-ci ildəki 60,1 faizdən 2021-ci ildə 45,8 faizə enib.**

Vergi orqanları bu istiqamətdə həm stimullaşdırıcı, həm də məhdudlaşdırıcı addımlar atmaqdadır. Stimullaşdırıcı addımlar nağdsız ödənişlər edən bütün tərəflərə müxtəlif güzəştlərin verilməsidir. Məsələn, Dövlət Vergi Xidmətinin "ƏDV geri al" layihəsi çərçivəsində nağd ödəniş edənlər 10 faiz, nağdsız ödəniş edən istehlakçılar isə ödədikləri verginin 15 faizini geri alırlar. Banklar nağdsız ödəniş edənlər üçün vəsaitin müəyyən hissəsini bonus olaraq istehlakçılara geri qaytarır. Bəzi supermarketlər nağdsız ödəniş edən istehlakçılar üçün lotereyalar təşkil edirlər. Bu lotereyalarda qalib gələnlər arasında qiymətli hədiyyələr - elektrik məhsulları, ev əşyaları və hətta avtomobil qazananlar da olur. Deməli, nağdsız ödənişlər əlavə qazanc gətirir.

Məhdudlaşdırıcı addımlar isə qanunla bir çox sahələrdə nağd əməliyyatların qadağan edilməsidir. Bu məqsədlə son illərdə Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, nağd qaydada həyata keçirilməsinin məhdudlaşdırılması, nağd ödənişlər aparan vergi ödəyicilərinə qarşı maliyyə sanksiyasının tətbiqi, nağdlaşma əməliyyatının vergiyə cəlb edilməsi üzrə müvafiq maddələr əlavə olunub. Ümumiyyətlə, vergi orqanları nağd ödənişlərin qaldığı bütün fəaliyyət sahələrinin tədricən qeyri-nağd platformaya keçidinin başa çatdırılmasına çalışır.

Ötən ilin dekabr ayında Milli Məclisdə "Nağdsız hesablaşmalar haqqında" qanuna edilmiş bəzi dəyişikliklərdən sonra əlavə olaraq bir sıra sahələrdə nağd ödənişlər qadağan edilib. Belə ki, pərakəndə satış qaydasında təqdim edilən malların satışı üzrə bir əməliyyat çərçivəsində 4.000 manatdan artıq olan ödənişlər nağd aparıla bilməz. Bu o deməkdir ki, bütün biznes və sahibkarlıq subyektləri satdığı malın dəyəri 4 min manatı keşdiyi halda onu təqdim etdiyi ünvana yalnız nağdsız qaydada, bank və digər köçürmə yolu ilə aparmalıdır. Bundan başqa, 2022-ci il yanvarın 1-dən tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlər üzrə bir əməliyyat çərçivəsində 500 manatdan artıq olan bütün ödənişlər də yalnız nağdsız həyata keçirilməlidir. Həmçinin avtomobil satışı üzrə nağd ödənişlərə də qadağa qoyulub. "Lotereyalar haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" qanunlar ilə tənzimlənən münasibətlər üzrə müəyyən edilmiş ümumi məbləği 3.000 manatdan artıq olan uduşlar (mükafatlar) və oyunlarda iştirakla bağlı pul ödənişləri (pul qoyuluşları) da bu qəbildəndir, yəni nağd ödəmə mümkün deyil. Daha doğrusu belə hal baş verdiyi təqdirdə, həmin şəxslər vergi cəriməsi və sanksiyası ilə üzləşməli olacaqlar.

**Qeyd edilən yeni dəyişikliklərin də əsas məqsədi "kölgə iqtisadiyyatı" ilə mübarizə, ölkə ərazisində mülki dövriyyənin iştirakçıları arasında aparılan əməliyyatların və hesablaşmaların şəffaflığını təmin etmək, nağd pul hesablaşmalarının nağdsız hesablaşmalarla əvəzlənməsinə nail olmaq, habelə istehlakçıların hüquqlarının müdafiəsini həyata keçirməkdir.**

**Elbrus CƏFƏROV**

*Beynəlxalq*

# BƏT-in Baş direktoru ambisiyalardan fəaliyyətə keçməyə çağırır



**Beynəlxalq Əmək Təşkilatının (BƏT) Baş direktoru Qay Rayder beynəlxalq ictimaiyyəti COVID-19 pandemiyasının sosial və iqtisadi nəticələrinin aradan qaldırılması üçün lazım olan ambisiyalar və kollektiv hərəkətlər barədə uzaqgörən bəyanatlar arasındakı boşluğu aradan qaldırmağa çağırıb.**

BƏT-in "İnsan yönümlü bərpa üzrə Qlobal Forumu"nun açılışında çıxış edən Q. Rayder pandemiya nəticəsində güclənən bərabərsizliyin ən çox zəiflərə təsir göstərdiyini vurğulayıb.

Deyib ki, cari trayektoriya bu uyğunsuzluğu uzadır və gücləndirir. Biz yalnız bu dinamikanı dayandırmaq və geri qaytarmaq üçün hərəkət etməliyik, əks halda dünyamız daha ədalətsiz və təhlükəli hala düşəcək.

Forumda müzakirə olunacaq sahələrin hər birində - inklüziv artım və layiqli iş yerləri, universal sosial müdafiə, işçilərin müdafiəsi və müəssisələrə dəstək, karbon neytrallığına ədalətli keçid kimi yeni və konkret birgə fəaliyyət və əməkdaşlıq sahələrini qurmaqla mühüm töhfə verə bilərik.

Üç gün davam edəcək forum dövlət və hökumət başçılarını, beynəlxalq təşkilatların və çoxtərəfli inkişaf banklarının rəhbərlərini, dünyanın hər yerindən işəgötürən və işçilərin liderlərini bir araya gətirir və COVID-19 böhranına beynəlxalq reaksiyanı gücləndirəcək konkret tədbirlər təklif edir.

**Açılış sessiyasında bütün regionların dövlət və hökumət başçıları, eləcə də çoxtərəfli və üçtərəfli əməkdaşlığı gücləndirməklə insan yönümlü bərpa çağırışına qoşulan beynəlxalq təşkilatların rəhbərləri çıxış ediblər. İlk tematik sessiya "Layiqli iş yerləri və inklüziv iqtisadi artım"mövzusuna həsr olunub. Sonrakı tematik sessiyalar "Ümumi sosial müdafiə", "İşçilərin qorunması və müəssisələrin dəstəklənməsi" və "Ədalətli keçid"ə həsr olunacaq. Qlobal Forum fevralın 24-də "COVID-19 pandemiyasından sonra insan yönümlü bərpa yolunda"sessiyası ilə başa çatacaq.**

# İctimai nəqliyyat işçiləri tətilə çıxıblar



**Fevralın 18-də Fransanın paytaxtı Parisdə və İle de Frans bölgəsində ictimai nəqliyyat işçiləri tətilə çıxıblar. Yeddi metro xəttində nəqliyyatın hərəkəti tamamilə dayandırılıb, RER şəhərətrafı qatarların, avtobusların və tramvayların işində ciddi fasilələr yaranıb. Həmkarlar ittifaqlarının məlumatına görə, metro və RER sürücüləri arasında mobilizasiya səviyyəsi 80 faizə çatıb. Tətilin səbəbi RATP qrupu (Paris və şəhərətrafı ərazilərdə ictimai nəqliyyatı idarə edən dövlət qurumu) rəhbərliyinin əməkhaqqı ilə bağlı məcburi kollektiv sövdələşmələr çərçivəsində həmkarlar ittifaqlarının rəyini dinləmək istəməməsi olub. Rəsmi olaraq şirkət rəhbərliyi maaşın 2,7 faiz artırılması təklifi ilə danışıqlar apardığını bildirir.**

Bu cür artıma mənfəətdə iştiraka görə bonus, eləcə də xidmətə və iş stajına görə əməkhaqqının planlaşdırılmış artımının hesablanması daxildir. İnflyasiyanın artmasına və 2021-ci ildə pandemiyanın davam etdiyi ərəfədə 205 milyon avroluq rekord mənfəətə baxmayaraq, şirkət əslində işçilərin yalnız üçdəbirinə təsir edə biləcək 0,4% artım (bura hətta bundan sonra da həftə sonu işi üçün bonuslar və xüsusi ödənişlər də daxildir) təklif edir. Şirkətdə aparıcı həmkarlar ittifaqı olan Fransa Ümuməmək Konfederasiyası (CGT) isə növbəti üç il ərzində maaşların 3% artırılmasını tələb edir. Qeyd edək ki, Parisin və onun ətraf rayonlarının ictimai nəqliyyatı yenidən təşkili və marşrutlara xidmət göstərilməsi üçün tenderlərlə bazar relslərinə keçidi gözləyir (avtobus marşrutları 2025-ci ildən, metro və RER - 2040-cı ildən).

**Beləliklə, RATP rəqabət mühitinin tezliklə yaranmasını nəzərdə tutur və öz işçilərinin əməyinə qənaət etmək təcrübəsindən vidalaşmağa tələsmir. Müəssisə rəhbərliyi avtobus sürücülərinin iş yükünü artırmaq və onların iş vaxtının müddətini uzatmaq niyyətindədir. Danışıqlar hələ davam edir.**

# Şirkətdə həmkarlar ittifaqı yaratmaq üçün çalışırlar



**ABŞ-ın bir neçə şəhərində "Apple Store" mağazasının işçiləri maaş artımları inflyasiya ilə ayaqlaşa bilmədiyi üçün gizli şəkildə həmkarlar ittifaqı yaratmaq üçün çalışırlar. İşçilər şirkət tərəfindən nəzarətdən yayınmaq üçün "Android" əməliyyat sistemi əsasında şifrələnmiş mesajlar və telefonlardan istifadə edirlər.**

Məlum olub ki, ən azı iki pərakəndə satış mağazası milli həmkarlar ittifaqı tərəfindən dəstəklənir və yaxın gələcəkdə Milli Əmək Münasibətləri Şurasına (NLRB) həmkarlar ittifaqı səsverməsi prosesinə başlamaq üçün sənədləri təqdim etməyə hazırlaşır. Dünyanın ən bahalı şirkəti ilə işçilər arasında əsas maneə inflyasiyanın yüksəlməsi fonunda durğunlaşan əməkhaqqı məsələsidir.

Məhsulun satışı ilə yanaşı, proqram təminatının təmiri və nasazlıqlarının aradan qaldırılması ilə məşğul olan fəhlələr ümid edirlər ki, həmkarlar ittifaqı yaratmaqla şirkətin qazandığı rekord mənfəəti işçilərlə bölüşdürmək imkanı əldə edəcəklər. "Apple"nin məlumatına görə, şirkətin dünyada 500-dən çox, ABŞ-da isə 270-dən daha çox satış nöqtəsi var.

**Ümumilikdə 65 mindən çox insan öz şəbəkəsindən istifadə edərək məhsulların satışı ilə məşğul olur. 2021-ci il maliyyə dövründə pərakəndə satışlar şirkətin ümumi gəlirinin 36%-ni təşkil edib ki, bu da təxminən 366 milyard dollar təşkil edir. "Apple" işçiləri deyirlər ki, şirkətin saatlıq tarifi onların fəaliyyət göstərdiyi regionlar üçün orta bazar səviyyəsindədir. Lakin digər şirkətlər "Apple" qədər qazanmır və bu şirkətlərin bazar dəyəri 3 trilyon dolları keçmir. "Apple" bu məsələ ilə bağlı şərh verməyib. Son zamanlar şirkətdəki iş şəraiti, daxili mənbələrə görə nəzərəçarpacaq dərəcədə pisləşib. "Apple" iş yerində ayrı-seçkilik, zorakılıq və cinsi təcavüz ilə mübarizə apara bilmir. Eyni zamanda bir pərakəndə mağazanın işçiləri menecerlərin onlarla və həmkarları ilə həmkarlar ittifaqının işçilərə necə zərər verəcəyi barədə daha çox "izahedici söhbətlər" etdiyini söylədi. Nəzarətdən qaçmaq üçün işçilər "Android" əməliyyat sisteminə əsaslanan telefonlardan istifadə edirlər. NLRB-yə müraciət etməzdən əvvəl işçilər hər bir mağazada çalışan işçilərin yarısından çoxunun dəstəyini qazanmaq istəyirlər. Çünki bilirlər ki, proses rəsmiləşdikdən sonra şirkət həmkarlar ittifaqı əleyhinə taktikaya əl atacaq və işçiləri əleyhinə səs verməyə inandırmağa çalışacaq.**

**Materialları hazırladı:**
**Azər MUSTAFAYEV**

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ
Son səhifə
CÜMƏ AXŞAMI, 24 FEVRAL 2022-Cİ İL / № 07 (1274)


# Min illərin yaddaş "kitabı"- çərşənbələr

**Azərbaycan xalqının min illər boyu yaddaşında qoruyub saxladığı ənənələrdən biri də Novruz bayramı ərəfəsində təntənə ilə qeyd etdiyi çərşənbələrdir. Bu çərşənbələrin mahiyyəti, mənası, atributları haqqında müxtəlif mülahizələr, izahlar mövcuddur.**

Biz bu yanaşmalardan birini oxucularımıza təqdim edirik.

Filologiya elmləri doktoru, dosent İlhamə xanım Qəsəbova deyir ki, qədim insanların təsəvvüründə qış 3 yerə bölünür: Böyük çilə, kiçik çilə və boz ay. Novruz bayramını 21-dən geri sayardılar. Baharın gəldiyi günə qədər bu çillələri və boz ayı qeyd edərdilər. İlk olaraq Su çərşənbəsi qarşılanardı. Bu çərşənbəni əzəl, xəbərçi çərşənbə də adlandırırlar.



Su çərşənbəsində su kulti ilə bağlı inanclar mövcuddur. Bu inanclarda xalqımızın suya pərəstiş etməsi, suyun üzərinə gedib sudan xeyir-dua alması əks olunur. İnsanlar suya arzu-istəklərini bildirir, başlarına gələn ağır hadisələri söyləyir və ən maraqlısı da il boyunca günah işlətməyəcəklərinə and icərdilər. Bu, su kultunun bizə bəxş etdiyi ən gözəl duyğulardan birdir. Su həm də ehsandır, insanda inam yeridir.

**İlk çərşənbə günü ta qədimdən xanımlar bulaq başına gedib, oradan su gətirərdilər. Həmin çərşənbə suyunu evə səpərdilər, çay qoyardılar, aşın suyunu o sudan qoyardılar. Evdə xəstə varsa onun üzərinə səpərdilər, əl-üzlərini yuyardılar. Ruzili-bərəkətli olsun deyə xəmiri o su ilə yoğurardılar. Maldarlıq ilə məşğul olanlar o su ilə pendir mayası tutardılar. Həmin sudan doldurub bir qabda süfrəyə qoyardılar və içərisinə yumurta (yumurta yoxluqdan var olmaq deməkdir), buğda, qənd atardılar ki, il boyu süfrələri ruzi-bərəkətli olsun.**

İkinci çərşənbə Od çərşənbəsi adlanır. Yəni bahara doğru günəş yavaş-yavaş torpağı qızdırır. Bu çərşənbədə od kultu ilə bağlıdır. Novruz bayramını odsuz-ocaqsız təsəvvür etmək mümkün deyil. İnsanlar qaranlıq düşən kimi həyətlərində Novruz tonqalı qalayır, hər ailə üzvünün adına bir şam yandırır. Od insanlara sevinc verir. Burada insanların oda olan inamı, odu müqəddəsləşdirməsi mühüm yer tutur.

**Od çərşənbəsində xalqımız lopa düzəldir və mütləq qazanlarımız qaynayır, aş dəmlənir, kimin nə azuqəsi varsa süfrəyə qoyulur. Tonqalın üzərindən uşaqları, xəstələri keçirirlər. İnsanlar bir il ərzində başlarına gələn ağrı-acıları danışır, sanki odla dərdləşir, dərdlərini kül edib yandırırlar. Novruz inanclarına görə, od külünü heç vaxt ayaqlamazlar, natəmiz yerə atmazlar. Novruz bayramındakı oda müqəddəs yanaşdıqları üçün bar verən ağacın dibinə atarlar.**

Üçüncü çərşənbə Yel çərşənbəsidir. Yəni yel artıq azacıq oyanmış torpağı, təzəcə çıxmış yaza həsrət gülləri tərpədir, tumurcuqlanan ağacları yellədir. Qərb bölgəsində qara çərşənbə, ölü çərşənbəsi də adlandırılır. Qonşuda dünyasını dəyişənlər varsa, onlara hörmət əlaməti olaraq, ocaq qalanmır. Bu çərşənbənin adət-ənənələrinə görə, qəbirlər ziyarət olunur. İli çıxmamış doğmaların adına ehsan süfrələri açılır.

**Sonuncu çərşənbə isə Torpaq çərşənbəsi adlanır. El arasında ilaxır çərşənbə də deyilir. Torpağı ana təbiət su ilə islatdı, günəşlə isitdi, yel ilə təmizlədi, beləliklə, torpağı əkinə-biçinə hazırladı. Ona görə də ilk yaz əkininə xışla-kotanla məhz torpaq çərşənbəsi günündə başlayardılar. Analar, nənələr "Səməni, saxla məni, ildə göyərdərəm səni", - deyib buğda isladardılar. Həmçinin onlar ürəklərində arzu da tutardılar. Əgər arzu yerinə yetəcəksə, səməni gur çıxar, yetməzsə, seyrək çıxardı.**

Bu çərşənbə daha böyük, təmtəraqlı, dəbdəbəli şəkildə keçirilir. Bütün fallar, arzular, istəklər icra olunur. Xonçalar bəzədilir, nişanlı qızların evlərinə xonçalar aparılır, yanıltma gecələri həyata keçirilir, yumurtalar boyanır, döyüşdürülür. Məhəllələrdə Novruz bayramının atributlarından olan kosa-keçəl oyunları təşkil edirlər. Keçəl qışı, Kosa isə yazı tərənnüm edir. İnsanlar masqalar geyinib zurna və sazla bir-birilərinin qapılarına gedir, bayram əhval-ruhiyyəsini artırırlar. Subay qızlarımız üzük falına baxırdılar. Xəstəsi, doğmaları səfərdə olanlar niyyət edib qapı pusmağa çıxardılar.

**Çərşənbə və bayram xonçaları qoğal, şəkərbura, badambura, paxlava və digər şirniyyatla bəzədilirdi. Hər bir şirniyyatın astronomik mənası olardı.**

**Gülöyşə MƏMMƏDLİ**

## İdman




# "Zenit" İC-nin sərbəst güləşçiləri gümüş və bürünc medal qazanıblar

**Bolqarıstanın Veliko Tırnovo şəhərində sərbəst güləş üzrə Dan Kolov - Nikola Petrov xatirə turniri keçirilib.**

Turnirdə məşqçi-müəllimlər Habil İbrahimovun və Aslan Ağayevin yetirmələri, "Zenit" İdman Cəmiyyətinin sərbəst güləşçiləri Turan Bayramov gümüş, Əliabbas Rzazadə isə bürünc medal qazanıblar.

Güləşçimiz Əliabbas Rzazadə (57 kq.) ilk görüşdə bolqarıstanlı İvaylo Tısova heç bir şans verməyib. Ancaq həmyerlimiz belaruslu Ariyan Tiutrinlə görüşdə son saniyələrdə üstünlüyü əldən verərək məğlub olub. Ə.Rzazadə fevralın 19-da keçirilən təsəlliverici görüşdə gürcüstanlı Qoqa Ciquaya "tuşe" ilə qalib gəlib. Təmsilçimiz amerikalı Niko Provonu isə cəmi 45 saniyəyə tam üstünlüklə məğlub edərək (10:0) bürünc medala sahib çıxıb.

Turan Bayramov (74 kq.) təsnifat mərhələsində yerli idmançı Mixail Georgiyevi məyus etdikdən (3:0) sonra Bolqarıstanın digər təmsilçisi Aykan Seidə tam üstünlüklə qalib gəlib (12:0). T.Bayramov dörddəbir finalda əlcəzairli Abdelkader İkkaldan güclü olub. Macarıstanlı Murad Kuramqomedovla görüşdə yekun hesab 1:1 olub və sonuncu xalı güləşçimiz aldığı üçün həmyerlimiz finala yüksəlib. Finalda millimizin digər üzvü Cəbrayıl Hacıyevə məğlub olaraq ikinci yeri tutub.

**Qeyd edək ki, Cəmiyyətin digər yetirməsi Əfqan Xaşalov (57 kq.) səkkizdəbir finalda Arun Aruna (Hindistan) "tuşe" ilə qalib gəldikdən sonra iranlı Rza Momenijuzadəni də vaxtından əvvəl üstələyib. Ə.Xaşalov yarımfinalda hindistanlı Aman Amanla qarşılaşmada zədələndiyindən görüşü məğlub başa vurub.**

# Hüquq məsləhətxanası

**Yoldaşımın sığorta stajı 20 ildən çoxdur. Sonuncu iş yerində isə stajı 2 ildir. Bilmək istəyirəm, ona xəstəlik vərəqəsinə görə müavinət veriləndə əvvəlki stajı nəzərə alınacaqmı?**

**Rövşən MAHMUDOV, Bakı şəhəri**

- "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında" Əsasnaməyə görə, sığortaolunanların əmək qabiliyyətinin müvəqqəti itirilməsi halında itirilmiş əməkhaqlarının, gəlirlərinin və əlavə xərclərinin tam və ya qismən kompensasiya edilməsi ilə əmək qabiliyyətinin itirilməsinə görə müavinət almaq hüquqları vardır.

Lakin yadda saxlamaq lazımdır ki, bu hüquq əmək qabiliyyətinin müvəqqəti itirilməsi halı məcburi dövlət sosial sığorta haqqı hesablanan əmək fəaliyyəti dövründə baş verdikdə yaranır.

Əsasnamənin 62-ci bəndinə görə, əmək qabiliyyətinin müvəqqəti itirilməsi hallarında:

- 8 ilədək sosial sığorta stajı olan işçilərə qazancın 60 faizi miqdarında;
- 8 ildən 12 ilədək sosial sığorta stajı olan işçilərə, 21 yaşına çatmamış və 5 ilədək sosial sığorta stajı olan ata-anasız yetim uşaqlara qazancın 80 faizi miqdarında;
- 12 il və daha çox sosial sığorta stajı olan işçilərə qazancın 100 faizi miqdarında müavinət verilir.

Qeyd edək ki, qazancın 100 faizi miqdarında müavinət bəzi kateqoriyadan olan işçilərə sosial sığorta stajı nəzərə alınmadan verilir. Bu işçilərin siyahısı da 62-ci bənddə verilmişdir.

Lakin Sizi sosial sığorta stajı maraqlandırdığı üçün bu kateqoriyadan olan işçilər haqqında məlumat vermirik.

Nəzərinizə çatdırırıq ki, müavinətin məbləği, təyin edilərkən sosial sığorta stajı sığortaolunanların əmək qabiliyyətinin itirildiyi günədək xeyrinə məcburi dövlət sosial sığorta haqqı ödənilən əmək fəaliyyəti dövrlərinin ümumi müddəti nəzərə alınmaqla hesablanır.

**İşçilərin haqq-hesab sənədlərində hansı məlumatlar göstərilməlidir?**

**Sevinc HƏŞİMOVA, Xırdalan şəhəri.**

- İşçilərin haqq-hesab sənədləri Əmək Məcəlləsinin 173-cü maddəsinə əsasən tərtib edilir. Maddəyə görə, işəgötürən əməkhaqqının hesablanması, ödənilməsi və ondan tutulmaların aparılması barədə bütün mühasibat hesablamaları əks etdirilən işçilərin haqq-hesab sənədlərini (kitabçalarını, vərəqələrini, çeklərini) tərtib edir.

İşçilərin haqq-hesab sənədlərində (kitabçalarında, vərəqələrində, çeklərində) aşağıdakı məlumatlar göstərilir:

hesablanmış əməkhaqqının ümumi məbləği;

əməkhaqqına əlavələr, mükafatlar, habelə digər ödənclər, onların növü və məbləğləri;

əməkhaqqından tutulan məbləğlər - tutulmanın adı, növü, səbəbi və məbləği;

faktik ödənilən məbləğ;

tərəflərin birinin digərinə ödənilməmiş pul borcu və onun məbləği.

Haqq-hesab sənədləri (kitabçaları, vərəqələri, çekləri) onları tərtib edən mühasib tərəfindən imzalanır və hər dəfə əmək haqqı verilərkən işçiyə təqdim edilir [208].

Bu maddə ilə müəyyən edilmiş əməkhaqqının hesablanması, ödənilməsi və ondan tutulmaların aparılması barədə bütün mühasibat hesablamaları kompüter proqramları vasitəsilə də aparıla bilər. Hər dəfə əməkhaqqı verilərkən işçinin tələbi ilə o, kompüter yaddaşında saxlanılan bu hesablamalarla tanış edilir. Bu məlumatlar işçinin xahişi ilə çap edilib ona verilə bilər.

**Mediasiya zamanı tərəflər hansı məsələlərdə bərabər hüquqlara malikdirlər?**

**Taleh QASIMOV, Gəncə şəhəri.**

-"Mediasiya haqqında" qanunun 6-cı maddəsinə əsasən, tərəflər mediasiya zamanı bütün məsələlərdə, o cümlədən mediatorun seçilməsində bərabər hüquqlardan istifadə edirlər və bərabər vəzifələr daşıyırlar.

Tərəflər mediasiyanın məqsədləri naminə əməkdaşlıq etməli və qarşılıqlı şəkildə fəaliyyət göstərməlidirlər.

Mediasiya mübahisənin həllində tərəflərin əməkdaşlığına, habelə ünsiyyət və danışıqlara əsaslanır.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**

## ALLAH RƏHMƏT ELƏSİN!

"Xidmət-İş" Həmkarlar İttifaqları Federasiyasının prezidenti İlyas Əliyev və aparat işçiləri Federasiyanın saytının administratoru Yalçın Rəhimova atası
**ADİL müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Neft və Qaz Sənayesi İşçiləri HİRK-in sədri Cahangir Əliyev və aparat işçiləri "Balaxanı Operatinq Company LTD" Şirkətinin HİK-in mühasibi Siracət Əliyevaya qardaşı
**HƏSƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mədəniyyət İşçiləri Hİ Qazax Rayon Komitəsinin sədri İsgəndər Qurbanov Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya əzizi
**RAMİZ müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Qobustan Rayon Komitəsinin sədri Leyla Hüseynova Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya əzizi
**RAMİZ müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Şəki Rayon Komitəsinin sədri Rəhman Məmmədov Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya əzizi
**RAMİZ müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Sabirabad Rayon Komitəsinin sədri Telman Əzimov Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya əzizi
**RAMİZ müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ İsmayıllı Rayon Komitəsinin sədri Gülər Abdullayeva Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya əzizi
**RAMİZ müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Tərtər Rayon Komitəsinin sədri Sadiq Quliyev Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya əzizi
**RAMİZ müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Ağdam Rayon Komitəsinin sədri Cahangir Talıbov Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya əzizi
**RAMİZ müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Yevlax Rayon Komitəsinin sədri Zöhrə Adgözəlova Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri
**SAMİR ƏHMƏDZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Zaqatala Rayon Komitəsinin sədri Sona Qaziyeva Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri
**SAMİR ƏHMƏDZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Bərdə Rayon Komitəsinin sədri Vüqar Şadlinski Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri
**SAMİR ƏHMƏDZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Qəbələ Rayon Komitəsinin sədri Malik Ağayev Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri
**SAMİR ƏHMƏDZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Goranboy Rayon Komitəsinin sədri Nizami Abdullayev Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri
**SAMİR ƏHMƏDZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Şəmkir Rayon Komitəsinin sədri Fərhad Cəfərov Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri
**SAMİR ƏHMƏDZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Mingəçevir Şəhər Komitəsinin sədri Cəlal İsmayılov Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri
**SAMİR ƏHMƏDZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Zaqatala Rayon Komitəsinin sədri Xanım İsayeva Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Goranboy Rayon Komitəsinin sədri Şahin Allahverdiyev Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7505
Sifariş: 564
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
Sərbəst qiymət